# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 sentyabr 2026-cı il, çərşənbə
№ 167 (7234)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Birliyin nümunəsi...

## İlham Əliyev: Hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək



Bax səh. 2

## Qalib Azərbaycanın sülh siyasətinə verilən yüksək mükafat

Bax səh. 3



Bax səh. 4

## 22-ci səfər...

Ermənilər niyə narahatdır?

## Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

Azərbaycan və BƏƏ əməkdaşlığın yeni gündəliyini müəyyən edib

Bax səh. 3




Bax səh. 4

## 110 bəndlik yol xəritəsi...

Azərbaycan və Türkiyənin XİN başçıları mühüm mesajlar verib

## Əmək Məcəlləsinə və "Aviasiya haqqında" Qanuna dəyişiklik ediləcək

Bax səh. 5

## İnkişaf strategiyasının hədəflərindən biri

Bax səh. 5

## BOKT-larla bağlı yeni qaydalar

Bax səh. 5

## Ankara-Dəməşq: təhlükəsizlik gündəliyindən iqtisadi tərəfdaşlıq mərhələsinə keçid

Bax səh. 7

## Yeni dünya nizamının "soyuq cəbhəsi"

Arktikada yeni strateji savaş başlayır?



Bax səh. 7



# Prezident İlham Əliyev Türkiyənin xarici işlər nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Hakan Fidan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan-Türkiyə qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın "bir millət, iki dövlət" prinsipi əsasında daha da möhkəmləndiyi məmnunluqla qeyd edildi.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, alternativ enerji istiqamətində beynəlxalq bazarlara yeni çıxış yolları ilə bağlı fikir mübadiləsi aparıldı.

Ölkələrimizin logistika baxımından əhəmiyyəti, o cümlədən Avropa ilə Asiya arasında mühüm körpü rolu oynadıqları vurğulandı, beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətimizin əlaqələndirilməsinin önəmi qeyd olundu.

Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzularla bağlı fikir mübadiləsi aparıldı.



# Birliyin nümunəsi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi, Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərini və müşahidəçilərini, Yəhya Bakuvi beynəlxalq Konfransının həmtəşkilatçıları və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.







## İlham Əliyev: Hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli şeyx həzrətləri.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram. Qonaqlara "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı keçirilir. Bu, özlüyündə böyük bir beynəlxalq tədbirdir. Eyni zamanda, bu günlərdə Bakıda böyük şair, mütəfəkkir Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans keçirilir və çoxlu qonaqlarımız bu konfransda iştirak edirlər.

Bu iki tədbirin eyni vaxtda Bakıda keçirilməsinin böyük mənası var. Çünki biz öz dahi şəxsiyyətlərimizlə, mütəfəkkirlərimizlə, şairlərimizlə həmişə fəxr edirik. Seyid Yəhya Bakuvi onlardan biridir. XV əsrdə yaşayıb-yaratmış Yəhya Bakuvi çox böyük bir iz buraxmışdır.

Azərbaycan xalqı dünya mədəniyyətinə bir çox dahi şəxsiyyətlər, şairlər, mütəfəkkirlər bəxş etmişdir. Sadəcə olaraq, onların adlarının sadalanması göstərir ki, xalqımız və diyarımız nə qədər istedadlarla zəngindir - XII əsrdə Nizami Gəncəvi, Xaqani Şirvani, XIV əsrdə İmadəddin Nəsimi, XV əsrdə Yəhya Bakuvi, XVI əsrdə Şah İsmayıl Xətai, Məhəmməd Füzuli. Yəni onların hər biri böyük bir dünyadır. Onların qoyduqları miras, tarixi-mədəni irs bu gün bizim üçün, onların davamçıları üçün, bütün Azərbaycan xalqı üçün və deyə bilərəm ki, bütün İslam aləmi üçün çox böyük dəyərdir.

Bilirəm ki, bizim tədbirlərdə bir çox ölkələrdən dini liderlər iştirak edirlər. Onları xüsusilə salamlayıram. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin dini liderlərindən başqa, bu gün Gürcüstan, Suriya dini liderləri, Şimali Qafqaz respublikalarının nümayəndələri, xüsusilə Dağıstandan, Çeçenistandan olan dini rəhbərlər iştirak edirlər. Yəni bu, birliyin nümunəsidir. Təbii ki, burada Azərbaycanın xüsusi rolu var. Çünki Azərbaycan həm Türk dünyasının bir parçasıdır, həm də Qafqaz ölkəsidir. Bizim ölkəmizin tarixinə baxanda hər şey açıq-aydın görünür. Qədim Qafqaz Albaniyası məhz bizim ərazilərimizdə mövcud idi və qədim dövlətin paytaxtı Qəbələ şəhəri idi, bu gün də ölkəmizin ən gözəl yerlərindən biridir.

Qədim Atabəylər dövlətinin paytaxtı isə digər gözəl şəhərimiz Naxçıvan olmuşdur. Yəni bu bir daha göstərir ki, Türk dünyası və Qafqaz - bu iki məkan, əslində, vahid bir coğrafiyanı əhatə edirdi və Türk Dövlətləri Təşkilatına üzv olan yeganə Qafqaz ölkəsi Azərbaycandır.

Təbii ki, bizim Türk dünyası ilə sıx əlaqələrimiz var, Qafqaz xalqları ilə sıx qohumluq, dostluq əlaqələrimiz var. Təbii ki, burada sizin bir yerdə olmağınız çox böyük rəmzi məna daşıyır. Çünki məhz belə birgə tədbirlər bizi daha da birləşdirir, aramızdakı dostluq, qardaşlıq əlaqələrini gücləndirir və dünyaya çox gözəl mesajlar verir.

Müsəlman dini liderlərin hər bir sözü, təbii ki, müsəlman icmaları üçün çox dəyərlidir, qiymətlidir. Bu sözlər sülhə, əməkdaşlığa, əmin-amanlığa, barışığa istiqamətləndirilirsə, deməli, yaşadığımız bölgələrdə də sülh və əmin-amanlıq üstünlük təşkil edəcək.

Bugünkü dünyada və xüsusilə müsəlman aləmində baş verən bəzi hadisələr, təbii ki, bizim hamımızı narahat edir. Biz Azərbaycanda hər zaman çalışmışıq və çalışacağıq ki, İslam həmrəyliyini əməli-praktiki addımlarla, öz işimizlə gücləndirək. Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatı, ICESCO təşkilatı xətti ilə bir çox tədbirlər keçirilmişdir. Hələ təxminən 10 il bundan əvvəl - 2017-ci ildə bizim təşəbbüsümüzlə və bütün müsəlman ölkələrinin dəstəyi ilə Bakıda IV İslam Həmrəylik Oyunları keçirilmişdir. Biz də bu Oyunları, sadəcə olaraq, idman yarışı kimi deyil, böyük birlik bayramı kimi qəbul edirdik.

Gələn il Bakıda İslam Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü keçiriləcək. Dünyada gedən proseslərin fonunda belə bir tədbirin məhz Azərbaycanda keçirilməsi hesab edirəm ki, təsadüfi deyil. Düzdür, bu qərar bir qədər əvvəl qəbul edilmişdir, amma, əslində, çox düzgün bir qərardır. Çünki bir daha demək istəyirəm ki, Azərbaycan təmsil olunduğu bütün təşkilatlarda birləşdirici, barışdırıcı və əməkdaşlığa istiqamət verən ölkə kimi çıxış edir. Əminəm ki, gələn il Azərbaycanda keçiriləcək bu Zirvə Görüşünün çox gözəl nəticələri olacaq. Bizim ümidlərimiz ondan ibarətdir ki, o Zirvə Görüşünə qədər bəzi müsəlman ölkələri arasında gedən proseslər, anlaşılmazlıq, bəzi hallarda toqquşmalar başa çatacaq. Öz tərəfimizdən əlimizdən gələni edəcəyik ki, müsəlman aləmi vahid bir ailə kimi birləşsin, bütün lazımsız söz-söhbətlər yığışdırılsın, qarşıdurmalar dayandırılsın. Bizi ayırmaq istəyən, əslində, İslam dininə zərbə vurmaq istəyən ünsürlər də öz yerlərinə otursunlar. Əlbəttə ki, biz ancaq müştərək səylərlə buna nail ola bilərik.

Ona görə hesab edirəm ki, sizin Bakıda olmağınız və bir yerdə tədbirlərdə iştirakınız, yenə də deyirəm, həm bölgəmizə, həm dünyaya çox ciddi və birmənalı mesajlar verəcəkdir.

Bilirəm ki, səfər zamanı siz Qarabağa da gedəcəksiniz. Mənə verilən məlumata görə, Ağdam, Xankəndi, Xocalı, Şuşa şəhərlərində olacaqsınız. Əminəm ki, bu səfər sizin üçün çox maraqlı olacaq. Çünki həm 30 ilin işğalının fəsadlarını, dağıntılarını görəcəksiniz və eyni zamanda, bu gün dirçələn Qarabağın yeni simasını görəcəksiniz. Bu torpaqlar 30 il ərzində Ermənistanın işğalı altında idi. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı şəhərində qanlı soyqırımı törədilmişdir. Artıq Xocalıda Xocalı Memorial Kompleksi də yaradılıb və əgər vaxtınız olarsa, oraya da baş çəkə bilərsiniz.

Qarabağda və Şərqi Zəngəzurda yerləşən bütün şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir. Xalqımıza qarşı etnik təmizləmə aparılmışdır. Bir milyona yaxın azərbaycanlı Ermənistan dövlətinin etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından didərgin salınmışdır. Bildiyiniz kimi, 30 il davam edən danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistanı dəstəkləyən böyük sayılan dövlətlər isə məsələni həll etmək yox, uzatmaq və bu işğalı əbədi etmək istəyirdi. Bu dövlətlər Ermənistana hərbi, iqtisadi, siyasi dəstək verərək faktiki olaraq işğalçını mükafatlandırırdı.

Azərbaycan xalqı bu ədalətsizliyə son qoydu və dünyada bir presedent yaratdı. Çünki bu vaxta qədər işğal edilmiş torpaqlar əfsuslar olsun ki, azad edilmirdi. Hər halda XX əsrdə və XXI əsrdə belə hallara rast gəlinmirdi, ya da ki, çox nadir hallarda rast gəlinirdi.

Azərbaycan xalqı qan tökərək, döyüşərək bu torpaqları azad etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, qəhrəman övladlarımızın fədakarlığı hesabına biz öz ədalətimizi, hüququmuzu və milli ləyaqətimizi bərpa etdik. İşğalçıları torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində qaldırdıq, separatçılığa son qoyduq. Separatçı liderlər, hərbi cinayətkarlar, uşaq qatilləri bu gün Azərbaycan həbsxanalarında öz cəzalarını çəkirlər. Bu da ədalətin təntənəsidir. Yəni ədalət tam zəfər çalmışdır və Azərbaycan xalqı bir yumruq kimi birləşərək öz ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq hüququ və ədaləti bərpa etmişdir.

Biz bu torpaqlara 30 ildən sonra qayıdanda nəyi gördük? Bunu indi bütün dünya görür - viran qoyulmuş şəhərlər, kəndlər, sökülmüş evlər, talanmış milli sərvətlərimiz, dağıdılmış məscidlər. 65 məscid Ermənistan dövləti tərəfindən, - mən xüsusilə bunu qeyd etmək istəyirəm, bu, Ermənistanın dövlət siyasəti idi, - Ermənistan dövləti tərəfindən tam dağıdılmışdır. Bəziləri yarıdağılmış vəziyyətdə idi. Yəqin ki, siz də o fotoları görmüsünüz, Ermənistan məscidlərdə bilərəkdən, qəsdən heyvan saxlayırdı, donuz saxlayırdı, inək saxlayırdı. Yəni bizi təhqir etmək, bizi aşağılamaq üçün, bizim həssaslığımızı dərk edərək, yəni qəsdən xalqımızı daha da incitmək üçün belə vəhşi əməllərdən də çəkinmədi. Əslində bu, təkcə bizə, xalqımıza yox, bütün İslam dünyasına bir təhqir idi. Bax, budur Ermənistan dövlətinin əsl siması. Biz bunu heç vaxt unutmamalıyıq və unutmayacağıq.

Bəli, bu gün sülh var və müharibə dayanıb. Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və əminəm ki, bu, uzunmüddətli olacaq. Hər halda Azərbaycan dövlətinin mövqeyi bundan ibarətdir. Ancaq biz bizə qarşı, xalqımıza qarşı törədilən vəhşilikləri heç vaxt unutmayacağıq. Xocalı qurbanlarını unutmayacağıq, dağıdılmış məscidlərimizi, təhqir edilmiş mədəni ocaqlarımızı heç vaxt unutmayacağıq və bu yaddaş bizi daha da ayıq edəcək. Bu yaddaş imkan verməyəcək ki, biz yenə də şirin sözlərə aldanaq, imkan verməyəcəyik ki, yenə də xalqımıza qarşı hansısa məkrli planlar baş tutsun. Biz ayıq olmalıyıq, ayığıq və eyni zamanda, öz hərbi gücümüzü də artırırıq. Məhz hərbi güc və övladlarımızın qəhrəmanlığı nəticəsində biz Ermənistanın işğalçı ordusunu öz torpaqlarımızdan qovmuşuq. Ona görə hərbi vətənpərvərlik tərbiyəsi bu gün Azərbaycanda çox geniş vüsət alıb. Hər kəs görür ki, bu gün dünya tamamilə dəyişib və güc amili ön plana çıxıb. "Kim güclüdür, o da haqlıdır" prinsipini biz ortaya atmamışıq. Amma biz mövcud olan reallıqlarla gərək hesablaşaq və təbii ki, hesablaşırıq. Bilirik ki, suverenliyimizin, ərazi bütövlüyümüzün, xalqımızın bundan sonra azad, müstəqil xalq kimi yaşamasının bir zəmanəti var, o da bizim iradəmiz, qətiyyətimiz, hərbi gücümüz, xalqımızın bir yumruq kimi birləşməsi, imanımız və milli dəyərlərimizdir.

Əlbəttə ki, Qarabağa səfəriniz, yenə də deyirəm, çox maraqlı olacaq. Çünki siz dirçələn Qarabağı da görəcəksiniz. Bu gün Qarabağda və Şərqi Zəngəzurda artıq 48 şəhər və kənddə insanlar yaşayır. Yəni keçmiş köçkünlər qayıdıb, orada işləyənlər, təhsil alanlar məskunlaşıb. "Böyük Qayıdış" Proqramı uğurla icra edilir. Bax, dediyim bu şəhər və kəndlərdə artıq 90 mindən çox insan yaşayır. Yəni həyat qayıdıb və bu, bizim böyük nailiyyətimizdir, tarixi nailiyyətimizdir. Xalqımız 30 il ərzində əzab-əziyyət içində yaşayıb. Bu gün isə qalib xalq kimi, müzəffər dövlət kimi yaşayırıq.

Onu da bildirməliyəm ki, bütün bu əzablara, işgəncələrə, soyqırımlara baxmayaraq, biz Ermənistana, Ermənistan xalqına qarşı adekvat addım atmamışıq. İkinci Qarabağ müharibəsi zamanı biz ancaq hərbi birləşmələri atəşə tutmuşduq. Biz Ermənistandan fərqli olaraq, əliyalın, mülki şəxslərə qarşı heç vaxt müharibə aparmamışıq. Bu, bizim xalqımızın mentalitetinə də, adətlərinə də ziddir. Mən hələ müharibə dövründə demişdim ki, biz intiqamımızı, qisasımızı döyüş meydanında almalıyıq və artıqlaması ilə aldıq da. Şəhidlərimizin qanı yerdə qalmadı. Biz şəhidlərimizin qanını düşməndən aldıq, düşməni məhv etdik, təslim olmağa məcbur etdik. Bir daha deyirəm, bu gün müzəffər xalq kimi qürurla yaşayırıq, qururuq.

Otuz il ərzində işğal dövründə Qarabağda Ermənistan dövləti bir daşı daş üstə qoymamışdır, bir bina tikməmişdi, ancaq öz yırtıcı, rüşvətxor və qaniçən rəhbərləri üçün villalar, imarətlər tikmişdir. İndi gedib görərsiniz, biz 4-5 il ərzində bütün o böyük ərazini, - təqribən 15 min kvadratkilometrə yaxın olan ərazi, - yəni bir ölkə boyda ərazini hansı hala gətirdik. Onu özünüz görərsiniz.

Mən bir daha sizi salamlayıram. Xüsusilə şeyx həzrətlərinə öz təşəkkürümü bildirmək istəyirəm. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, Türk dünyasında, İslam dünyasında və dünyada böyük hörmətə malik olan şəxsiyyətdir. Onun fəaliyyəti həm Azərbaycan xalqı tərəfindən, həm qonşu dövlətlər, xalqlar tərəfindən yüksək qiymətləndirilir. Onun himayəsi, təşəbbüsü ilə keçirilən bu tədbirlərin çox böyük mənası var - həm xalqımız üçün, həm Qafqaz üçün, Türk dünyası üçün, İslam aləmi üçün. Ona görə hörmətli şeyx həzrətləri, sizə öz təşəkkürümü bildirmək istəyirəm. Qonaqlara da təşəkkürümü bildirirəm ki, bu gün bizimlə bir yerdədirlər. Sizə uğurlar, təmsil etdiyiniz xalqlara, ölkələrə xoşbəxtlik, əmin-amanlıq, cansağlığı arzulayıram.

Sağ olun.

x x x

Sonra nümayəndə heyətinin üzvləri çıxış ediblər

x x x

**Prezident İlham Əliyev:** İlk növbədə, xahiş edirəm ki, mənim salamlarımı və hörmətimi böyük İmama çatdırasınız. Onunla Misirdə, Əl-Əzhərdə görüşümü mən heç vaxt unutmayacağam. O cümlədən onun Bakıda olmasını da məmnunluqla xatırlayıram. Onu yenidən Bakıda görməyi çox istərdim və müvafiq məktublar da göndərildi. Ümid edirəm ki, bizim dəvətimizi qəbul edəcək.

Eyni zamanda, sizə bir daha təşəkkürümü bildirmək istəyirəm, Şeyx Zayed adına olan bu mükafata görə. Bu mükafat çox böyük məna daşıyır, təbii ki, mənim üçün. Çünki çox mötəbər bir münsiflər heyəti tərəfindən qərar verilmişdir və bilirəm ki, orada seçim prosesi çox dəqiqdir və çox həssasdır, bir çox amillər nəzərə alınır. Buna görə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Eyni zamanda, bu mükafat sülhə atılmış növbəti bir addım idi. Bu, bizim sülh gündəliyimizi dəstəkləyən bir addım idi. Çünki mən bir daha demək istəyirəm, biz indi Ermənistanla sülh şəraitində yaşayırıq. Ancaq bizim ürəyimizdə olan yaralar sağalmayıb. Xalqımızın qəlbində olan o yaralar sağalmayıb və nə vaxt sağalacaq, bunu heç kim bilə bilməz.

Qanlı toqquşmalardan, 30 illik işğaldan cəmi iki il keçməmiş sülhə addımlamaq çox böyük həm cəsarət tələb edir, uzaqgörənlik tələb edir və eyni zamanda, bir daha Azərbaycanın sülh gündəliyini nümayiş etdirir. Əlbəttə, müxtəlif yollar seçilə bilərdi və təbii ki, seçim Azərbaycanın idi. Çünki Azərbaycan müharibədə qalib gəlmişdir. Ermənistan tam məğlub edilmişdir, kapitulyasiya aktına imza atmışdır və əlbəttə ki, biz istənilən gündəliyi diktə edə bilərdik. Ancaq biz sülh gündəliyini seçdik və bu seçimin nə qədər müdrik olması bu gün bütün dünyaya, necə deyərlər, aydındır və bütün dünya bunu görür. Çünki bu qarşıdurma, bu müharibə nə vaxtsa dayanmalı idi və onu biz dayandırmasaq, onu heç kim dayandıra bilməzdi. Biz onu dayandırmasaydıq, bu, elə əbədi davam edəcəkdi, qan töküləcəkdi, şəhidlər veriləcəkdi və ölkəmizin normal inkişafı mümkün olmayacaqdı. Ona görə bax, bu sülh gündəliyini praktiki işlərlə dəstəkləyən məhz Sizin mənə və Ermənistanın Baş nazirinə verdiyiniz mükafat idi. Bəli, bəyanatlar verilmişdir. Ermənistanla Azərbaycan arasındakı sülh müqaviləsinin paraflanmasına, demək olar ki, bütün beynəlxalq birlik dəstək vermişdir, yəni siyasi bəyanatlar verilmişdir. Amma bu mükafat onları daha da gücləndirdi. Əbu-Dabidə sizin təşkil etdiyiniz o təntənəli mərasim, sizin şəxsi münasibətiniz və orada dünya liderlərinin sülh prosesinə dəstək vermələri, əlbəttə ki, bu müsbət meyilləri gücləndirir.

Biz cəmi bir ildən bir qədər çox - bir il bir aydır sülh şəraitində yaşayırıq. Sülh hələ ki, tam oturuşmayıb. Bəli, bizim güclü iradəmiz var. Biz sülh gündəliyinə sadiqik. Ancaq dünyada və ətrafımızda gedən proseslər, - indi hər kəs görür, - faktiki olaraq idarəolunmaz səviyyəyə gəlib çıxıb və hətta xaotik vəziyyət dərinləşə bilər, həm mövcud münaqişələr çərçivəsində, həm də genişlənə bilər. Biz görürük ki, artıq bir çox ölkələr müxtəlif bölgələrdə qarşıdurmadadırlar. Yəni bu, iki ölkə arasındakı qarşıdurmalar deyil. Artıq bir çox ölkələr bu qarşıdurmalarda fəal iştirak edir və bu qanlı toqquşmaların coğrafiyası genişlənir. Ona görə Türk dünyasını, Qafqaz bölgəsini sülh şəraitində saxlamaq və sülhü qorumaq üçün hər birimiz böyük səylər göstərməliyik. Ona görə mən bir daha sizə təşəkkürümü bildirirəm ki, sizin bizə verdiyiniz o mükafat həm ictimai fikirdə, həm ondan sonra siyasi addımların atılmasında və sülhü artıq geridönməz etməsində çox böyük rol oynadı. Ona görə bir daha təşəkkür edirəm və bütün xoş sözlərinizə görə sizə minnətdaram.

x x x

**Şeyxülislam Allahşükür Paşazadə:** Mən də sizə təşəkkürümü bildirmək istəyirəm. Bilirsiniz nəyi? Mədrəsə, Mir-i Ərəb mədrəsəsi, Siz ki, oraya getdiniz.

**Prezident İlham Əliyev:** Şəkil də çəkdirdik Sizin portretinizin fonunda. Mən Mehriban xanıma dedim, gəlin, şəkil çəkdirək və şeyxə göndərin. O şəkil ki, onun mədrəsəsində dostumuzla çəkdirdik.

**Şeyxülislam Allahşükür Paşazadə:** Şavkat Mirziyoyevin babası da orada oxuyub.

**Prezident İlham Əliyev:** Bəli, şəkli var, sizin də şəkliniz.

**Şeyxülislam Allahşükür Paşazadə:** Bəli, mənim də şəklim var. Minnətdaram ki, Siz o milli-mənəvi dəyərlərə bir daha qiymət verdiniz. Əlbəttə, bu görüş bizim hamımızı çox sevindirdi. Bu, türk dövlətlərinin xüsusi bir görüşü idi.

**Prezident İlham Əliyev:** Belə tez-tez yığışırsınız.

**Şeyxülislam Allahşükür Paşazadə:** Bu görüşlərdə bir mülayimlik, bir mərhəmət var. Bu görüşlər türkdilli xalqları daha sıx birləşdirir.

**Prezident İlham Əliyev:** Təbii ki, indi türk dövlətlərinin müsəlman liderlərinin görüşləri müxtəlif ölkələrdə keçirilir və sıra ilə keçiriləcək. Amma bax, bu konfrans ki, keçirilir, bunu biz ənənəvi edə bilərik. Ənənəvi edə bilərik, ya hər il, ya iki ildən bir ki, bu, həm gözəl bir toplantı kimi, həm fikir mübadiləsi, həm müzakirə, həm də birliyin nümayişi olsun. Ona görə bu haqda da fikirləşin. Yenə də təşəbbüsü mən irəli sürürəm, sizdən də konkret təkliflər gözləyirəm.

**Şeyxülislam Allahşükür Paşazadə:** Minnətdarlığımızı bildiririk, çox sağ olun, bu qədər vaxtınızı bizə ayırdınız.

**Prezident İlham Əliyev:** Sağ olun.

x x x

Sonda xatirə şəkli çəkdirildi.

# Sabaha açılan qapılar...

Müasir dövlət kimi inkişaf edən Azərbaycan indiki dövrdə yaranan yeni qlobal çağırışları və ölkəmizin reallıqlarını nəzərə almaqla innovativ inkişafı özünün prioritetlərindən biri kimi müəyyənləşdirib. Hazırda müəyyənləşdirilən strateji kursa uyğun olaraq ölkəmizdə müvafiq bazanın yaradılması istiqamətində fəal iş aparılır və təşviqedici tədbirlər həyata keçirilir.



Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında “SABAH.city” innovasiya şəhərciyinin yaradılması bu istiqamətdə atılan mühüm addımlardan biridir. Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də “SABAH.city” innovasiya şəhərciyinin birinci mərhələsinin açılışında iştirak edib və Özünün dəyəli tövsiyələrini verib.

**Azərbaycanın süni intellekt gündəliyinin gözəl nümunəsi**

Çox doğru olaraq innovativ inkişaf, o cümlədən də süni intellekt dünyanın bu gündən başlayan gələcəyi kimi səciyyələndirilir. Hazırda bu sahədə ciddi rəqabət müşahidə edilir. Artıq süni intellekt həyatın, demək olar ki, bütün sahələrinə nüfuz edib. Bu sahədə gecikmiş qərarlar vermək rəqabətdə və inkişafda geri qalmaq deməkdir. Beynəlxalq birliyə sıx inteqrasiya edən Azərbaycan da özünün süni intellekt gündəliyini müəyyənləşdirib. Ölkənin geniş potensiala və yeniliklərə açıq olan kadr ehtiyatına malik olması bu gündəliyin irəli aparılması və hədəflərə çatılması üçün əsas amillər qismində çıxış edir.

“SABAH.city” Azərbaycanın kifayət qədər geniş əhatə dairəsinə malik olan süni intellekt gündəliyinin gözəl nümunəsidir. Layihə ümumilikdə 20 hektarda icra olunacaq. Birinci mərhələ 5 hektardan çox ərazini və ümumilikdə 20 min kvadratmetr tikili sahəni əhatə edir. Burada tikinti işlərinə ötən ilin oktyabrında başlanılıb və bir-biri ilə əlaqələndirilmiş 4 korpusdan ibarət kompleks inşa olunub. Şəhərcikdə 5 restoran, market və tədbirlər zalı, həmçinin açıq idman infrastrukturu - basketbol, futbol meydançaları və 2 padel kortu yaradılıb, açıq havada istirahət zonaları, piyada və velosiped zolaqları, parklanma sahələri təşkil edilib.

Şəhərcikdə Bakı Dövlət Universitetinin, Azərbaycan Texniki Universitetinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mühəndislik, informasiya texnologiyaları, tətbiqi elmlər istiqamətlərində təhsil alan 1500-dən çox tələbəsinin tədrisə və praktiki fəaliyyətə cəlb edilməsi nəzərdə tutulur. Şəhərciyin tam fəaliyyətə başlaması ilə isə gündəlik ziyarətçi sayının təxminən 3 min nəfər olacağı gözlənilir.

“SABAH.city” innovasiya şəhərciyində Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tərəfindən yaradılan ümumilikdə 13 tədris və tədqiqat laboratoriyası var. Laboratoriyalarda süni intellekt, robototexnika, kompüter elmləri, kibertəhlükəsizlik, biotexnologiya, nanobiologiya, nanofizika, kimya, telekommunikasiya və digər prioritet elmi-texnoloji istiqamətlər üzrə tədqiqat və tətbiqi fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur.

Burada, eyni zamanda, 12 startapın yer aldığı “kovorkinq” (insanların və şirkətlərin işləməsi üçün nəzərdə tutulmuş ortaq iş məkanı) zonası, yerli və beynəlxalq texnologiya şirkətləri, korporativ tədqiqat və inkişaf mərkəzləri, həmçinin innovasiya ekosisteminin digər iştirakçıları üçün 22 ofis sahəsi var.

Layihənin birinci mərhələsinə 3 ali təhsil müəssisəsi ilə yanaşı, 8 texnologiya və innovasiyayönümlü şirkət, 12 startap olmaqla ümumilikdə 23 əsas ekosistem iştirakçısı cəlb edilib.

**İndiyədək 50 süni intellekt həlli təqdim olunub**

Müstəqil Azərbaycan dünyada həmçinin öz intellektual brendləri ilə tanınır. “ASAN xidmət” də bu sırada yer alır. Hazırda ölkəmizdə müxtəlif xidmətlərin vətəndaşlara bir arada təqdim olunduğu “ASAN xidmət” şəbəkəsinin fəaliyyətindən məmnunluq səviyyəsi 100 faizə yaxındır. Eyni zamanda, bu model əsasında dünyanın ayrı-ayrı ölkələrində vətəndaşlara dövlət xidmətləri strukturu qurulub.

Respublikamızda qazanılan təcrübə nəzərə alınmaqla “ASAN xidmət” modeli daha da inkişaf etdirilir. “SABAH.city” də ASAN Süni İntellekt Mərkəzinin (ASAN AI Hub) yaradılması da bunun təsdiqidir.

ASAN Süni İntellekt Mərkəzi Azərbaycanda süni intellekt sahəsində innovativ təşəbbüsləri dəstəkləmək, tədqiqatçıları, dövlət qurumlarını, özəl sektoru və fərdi istifadəçiləri vahid rəqəmsal platformada (www.asanhub.ai) bir araya gətirmək, açıq innovasiya modelini təşviq etməklə dövlət, biznes və təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə yaradılıb. Bu günədək ümumilikdə 50 süni intellekt həlli təqdim olunub. ASAN Süni İntellekt Mərkəzi ölkədə fəaliyyət göstərən 8 universitet, Azərbaycan Milli Elmlər Akademiyası, bir sıra nüfuzlu xarici universitetlər (Sinxua Universiteti (Çin), Oksford Universiteti (Birləşmiş Krallıq) və Boğaziçi Universiteti (Türkiyə), eyni zamanda, digər beynəlxalq nüfuzlu tərəfdaşlarla əməkdaşlıq əlaqələri qurub. “ASAN xidmət”in “INNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzindən bu günədək 150 startap yararlanıb, 4 startap xarici investorlar tərəfindən satın alınıb.

“Süni İntellekt Assistent” platforması “ASAN xidmət”in müxtəlif fəaliyyət istiqamətləri barədə məlumatı sürətli, sadə və adi söhbət formatında əldə etmək, təhlil və proqnozlaşdırmaq imkanı yaradır.

*Mübariz FEYİZLİ*

# Qalib Azərbaycanın sülh siyasətinə verilən yüksək mükafat



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondunun 2026-cı il üçün “Zayed İnsan Qardaşlığı Mükafatı”nın qalibləri sırasında Azərbaycan Prezidenti İlham Əliyev də yer alır. Mükafatın təqdimolunma mərasimi cari il fevralın 4-də BƏƏ-nin paytaxtı Abu-Dabidə keçirilib. Sentyabrın 14-də isə Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam Prezident İlham Əliyevlə görüş zamanı “Zayed İnsan Qardaşlığı Mükafatı”nın sertifikatını dövlətimizin başçısına təqdim edib.

Mükafatın şərtlərinə görə, Azərbaycan Prezidentinə 500 min ABŞ dolları məbləğində vəsait verilir.

Prezident İlham Əliyev bu məbləğin tam olaraq Qarabağ Dirçəliş Fonduna köçürülməsi ilə bağlı qərar qəbul edib.

**Humanizm, dözümlülük və qlobal həmrəylik rəmzi**

Şeyx Zayed Fondu BƏƏ-nin banisi Şeyx Zayed bin Sultan Əl Nəhyanın irsini yaşatmaq üçün təsis edilib. Fondun əsas missiyasının fəlsəfəsi dünyada humanizm, dözümlülük, ətraf mühitin qorunması və xalqlararası sülhün təşviqidir. “Zayed İnsan Qardaşlığı Mükafatı” dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır. İndiyədək bu mükafata layiq görülənlər arasında BMT-nin Baş katibi Antonio Quterreş, İordaniya Kralı II Abdullah və kraliçası Raniyə Əl Abdullah, mərhum Roma Papası Fransisk, Misirin Əl-Əzhəri Şərifinin şeyxi, böyük imam Əhməd Əl-Tayyib, IMAD Assosiasiyasının təsisçisi və ekstremizmə qarşı fəal, əslən Mərakeşdən olan xanım Lətifə İbn Ziyaten, keniyalı sülh və icma fəalı xanım Şəmsa Əbubəkr Fadhil, Barbadosun Baş naziri xanım Mia Amor Mottley və digər şəxslər var.

Onu da qeyd edək ki, Fond bir neçə sahə üzrə mükafatlar təqdim edir. Bu mükafatlar yalnız müstəsna xidmətləri olan şəxsiyyətlərə və qurumlara verilir. Prezident İlham Əliyevin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi isə Azərbaycanın həm regional, həm də qlobal miqyasda sülh quruculuğu prosesindəki aparıcı roluna beynəlxalq səviyyədə verilən yüksək qiymətdir.

**Azərbaycanın dünyada təqdir olunan sülh gündəliyi**

“Zayed İnsan Qardaşlığı Mükafatı”nın fəlsəfəsində dayanan ən mühüm məqamlardan biri sülh və birgəyaşayışla bağlıdır. Ayrı-ayrı regionlarda qanlı müharibələrin alovlandığı indiki dövrdə dünyanın heç vaxt olmadığı qədər sülhə böyük ehtiyacı var. Qalib Azərbaycan da beynəlxalq birlik üçün nümunə sayıla biləcək sülh gündəliyinə malikdir. Mükafat Prezident İlham Əliyevin liderlik keyfiyyətlərinin, diplomatik məharətinin və sülhə nail olmaq üçün göstərdiyi qətiyyətin dünya miqyasında tanınması və yüksək dəyərləndirilməsi deməkdir.

Qalib Azərbaycan sülh niyyətində olduğunu müharibə başa çatandan dərhal sonra bütün dünyaya bəyan etdi. Bunun təsdiqi olaraq Azərbaycanın qarşı tərəfə göndərdiyi 5 bənddən ibarət sülh paketi beynəlxalq norma və prinsiplərə istinad olunmaqla hazırlanmışdı. Burada Azərbaycan qalib dövlət olaraq hansısa bir imtiyazlardan çıxış etməmişdi ki, bu da ölkəmizin sülh istəyində nə qədər səmimi olduğunu təsdiqləyir. Bundan sonra sülhyaratma prosesinə start verildi. Təəssüf ki, yenə də Ermənistanın və bu dövlətin havadarlarının manipulyasiyalara əl atmaları səbəbindən sülhyaratma prosesi rəvan şəkildə irəliləmədi və müəyyən zaman itkisinə yol verildi. Ancaq nəticə etibarı ilə Azərbaycanın iradəsi qalib gəldi və sülhyaratma prosesini ötən il avqustun 8-də Vaşinqtonda əldə olunan mühüm razılaşmalaradək irəlilətmək mümkün oldu. Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanan “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır.

Beləliklə, onilliklər ərzində işğalçılıq siyasətindən əziyyət çəkən Cənubi Qafqaz coğrafiyasında yeni bir dönəm başlayıb. İndi bu coğrafiya Azərbaycanın iradəsi və yaratdığı reallıqlar sayəsində heç vaxt olmadığı qədər sülhə yaxındır. Yekun sülh sazişinin paraflanması, eləcə də Minsk qrupunun ləğvi Azərbaycan diplomatiyasının növbəti uğurudur. Hazırda regionda real sülh şəriti var və etimad quruculuğu yolunda addımlar atılır. Mükafatın Prezident İlham Əliyevə verilməsi də beynəlxalq ictimaiyyətin Onun 35 illik münaqişəni sülh yolu ilə sonlandırmaq, Cənubi Qafqazda davamlı sülh və sabitlik yaratmaq uğrunda göstərdiyi səylərə və Azərbaycanın prinsipial sülh siyasətinə verdiyi yüksək qiymətin ifadəsidir.

*Mübariz ABDULLAYEV*

# Yüksəksəviyyəli münasibətlərin yeni səhifəsi

## Azərbaycan və BƏƏ əməkdaşlığın yeni gündəliyini müəyyən edib

Prezident İlham Əliyevlə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Əbu-Dabi Əmirliyi hakiminin müavini, milli təhlükəsizlik müşaviri Şeyx Tahnun bin Zayed Al Nəhyanı arasında keçirilən görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi bildirilib. Münasibətlərin möhkəmlənməsində Azərbaycan və BƏƏ prezidentlərinin şəxsi dostluq əlaqələri, dövlət başçılarının qarşılıqlı səfərləri və görüşlərinin mühüm rol oynadığı vurğulanıb. Əməkdaşlıqla bağlı məsələlərin müzakirəsi baxımından Birləşmiş Ərəb Əmirliklərindən böyük nümayəndə heyətinin ölkəmizə səfəri mühüm əhəmiyyət kəsb edir.

Səfərlər zamanı imzalanan sənədlər və razılaşmalar əməkdaşlığın strukturunu və gələcək hədəflərini dəqiqləşdirir. Belə ki, 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı “Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanıb, 2025-ci ilin sentyabrında isə “Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə” qüvvəyə minib. Bu sənədlər Azərbaycan və BƏƏ arasında ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə qaldıraraq strateji tərəfdaşlığın bütün sahələrdə möhkəmlənməsinə xidmət edir. Bəyannamə iki ölkə arasında etimadın artırılmasına, qarşılıqlı dialoqun intensivləşdirilməsinə və uzunmüddətli əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsinə imkan verir.

### “Yaşıl enerji” anlaşmaları

Azərbaycan-BƏƏ ikitərəfli əlaqələri iqtisadi-ticari, enerji, həmçinin bərpaolunan enerji, kənd təsərrüfatı, qida təhlükəsizliyi, nəqliyyat, logistika, mədəni, humanitar və digər istiqamətlərdə son illərdə yüksək inkişaf meyilləri nümayiş etdirməkdədir.

Əbu-Dabi Əmirliyi hakiminin müavininin səfəri çərçivəsində imzalanan sənədlər əməkdaşlığın müasir gündəliyini əks etdirən mühüm anlaşma hesab edilə bilər. Həmin sənədlər arasında bərpaolunan enerji layihələri xüsusi əhəmiyyət daşıyır. Belə ki, “Abu Dhabi Future Energy Company” - “Masdar” və “AGEC” arasında əməkdaşlıq Sazişi” “yaşıl enerji” sahəsində əməkdaşlığın davamı deməkdir. “Masdar” şirkəti xeyli müddətdir ki, ölkəmizin enerji sektoruna sərmayələrdə liderlik edən investor kimi diqqəti cəlb edir. Şirkət 230 meqavatlıq Qaradağ Günəş Elektrik Stansiyasına 262 milyon dollarlıq sərmayə yatırıb və stansiya ötən il istifadəyə verilib. Hazırda isə Energetika Nazirliyi, SOCAR və “Masdar” arasında imzalanmış “Neftçala 315 mvt Günəş fotovoltaik layihəsi üzrə maliyyə bağlanışının baş tutmasının təsdiqi” sazişinə əsasən, təmiz enerjiyə keçid üçün güclü infrastrukturun əsası qoyulur. Layihənin icrası ildə 314 min ton $CO_2$ emissiyasını azaldacağı, Azərbaycanın aşağı karbonlu iqtisadiyyata keçidinə və istilik generasiyasından asılılığın azaldılmasına töhfə verəcək. Layihə, həmçinin, Azərbaycanın enerji sisteminə 315 MVt günəş enerjisi əlavə edəcək ki, bu da təbii qazla işləyən elektrik stansiyalarını əvəz etməyə imkan verəcək.



“Masdar”la SOCAR arasında Naxçıvan Muxtar Respublikasında 500 MVt gücündə bərpa olunan enerji layihələrinin inkişafına dair Anlaşma Memorandumu imzalanıb. Eləcə də “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti ilə “Terra Mining Ltd” arasında “Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində mineral-xammal potensialının və mədən sahələrinin birgə qiymətləndirilməsi və kəşfiyyatı haqqında Saziş” Muxtar Respublikanın turizm potelsialına ərəb sərmayələrinin cəlb edilməsi baxımından əhəmiyyətlidir.

“Masdar” şirkəti Azərbaycanlı şirkətlərlə birgə Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində işləyir. İnvestisiya planına əsasən, Azərbaycanın bərpaolunan enerji sahəsinə 2 milyard dollardan artıq sərmayə yatırılacaq. Bu iri layihələr nəhəng investisiya portfelinin göstəricisi kimi BƏƏ şirkətlərinin Azərbaycana olan yüksək münasibətini əks etdirir.

### Orta dəhliz və süni intellekt quruculuğunda yeni imkanlar

Tərəflər digər investisiyayönümlü layihələr üzərində fəal iş aparır və səfər çərçivəsində ölkəmizə gəlmiş nümayəndə heyətlərinin tərkibində nüfuzlu səhmdarların yer alması da bunu təsdiqləyir. Müasir strateji baxış isə əsas etibarilə qeyri-neft bölmələrinə fokuslanıb və hazırda ticari dövriyyədə nəzərə çarpan dinamikanın da əsas hərəkətverici xətti qeyri-neft üzrə əmtəə mübadiləsidir. Mövcud potensialları bir platformada birləşdirən tərəflər müştərək iqtisadi hədəfləri həyata keçirmək üçün daha genişturtumlu Yol Xəritəsi hazırlayıb. Bu baxımdan, “Azərbaycan İnvestisiya Holdinqi ilə “L’IMAD HOLDING COMPANY PJSC” arasında strateji əməkdaşlıq Sazişi” kommunikasiya və sənaye sektorlarında birgə işbirliyini nəzərdə tutur. Eləcə də, İqtisadiyyat Nazirliyi və “XRG SGC LIMITED” arasında “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyəti ilə bağlı Səhmdarlar Müqaviləsi” nəqliyyat bağlantılarının əlaqələndirilməsini nəzərdə turur. İqtisadiyyat Nazirliyi və “GROUP 42 Holding Ltd” arasında “Azərbaycan Respublikasında Data Mərkəzinin, Yüksək Performanslı Hesablama və Süni İntellekt İnfrastrukturunun inkişafı üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu” süni intellekt sahəsində əməkdaşlığın qurulmasına imkan verəcək.

*E.CƏFƏRLİ*

# 110 bəndlik yol xəritəsi...

## Azərbaycan və Türkiyənin XİN başçıları mühüm mesajlar verib

**Türkiyənin xarici işlər naziri Hakan Fidan ölkəmizə səfər çərçivəsində xarici işlər naziri Ceyhun Bayramovla görüşüb. Nazirlər prezidentlərin rəhbərliyi və baxışları əsasında formalaşmış və Şuşa Bəyannaməsində təsbit olunmuş strateji müttəfiqlik münasibətlərinin geniş gündəliyini nəzərdən keçiriblər. Müzakirələr zamanı siyasi dialoq, iqtisadi və ticarət əlaqələri, investisiyalar, enerji, nəqliyyat və logistika, təhlükəsizlik və müdafiə, humanitar əməkdaşlıq, eləcə də beynəlxalq və regional təşkilatlar çərçivəsində koordinasiya məsələləri müzakirə olunub.**

### Nazirlər nələri müzakirə edib?

Nazirlər Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiya kimi institusional mexanizmlərin əhəmiyyətini vurğulayıblar. Tərəflər BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə, D-8 və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

XİN başçıları, həmçinin Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Pakistan-Türkiyə və Azərbaycan-Özbəkistan-Türkiyə kimi üçtərəfli və dördtərəfli əməkdaşlıq formatlarının regional təhlükəsizliyə, iqtisadi inkişafa və əlaqələndirməyə verdiyi töhfəni qeyd ediblər. Görüşdə ötən il ərzində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində əldə olunan irəliləyiş, eləcə də davamlı sülhün və regional əməkdaşlığın təmin olunması üçün atılacaq praktiki addımlar müzakirə edilib.





Nazirlər Yaxın Şərqdə və digər regionlarda baş verən hadisələr, yeni geosiyasi reallıqlar və davam edən münaqişələr barədə də fikir mübadiləsi aparıblar. Tərəflər münaqişələrin və hərbi qarşıdurmaların siyasi və diplomatik yollarla həll edilməli olduğuna dair ortaq mövqelərini bir daha təsdiqləyiblər.

Daha sonra mətbuat konfransı keçirilib. Ceyhun Bayramov bildirib ki, Azərbaycan və Türkiyə münasibətləri dünyada bənzəri olmayan münasibətlərdir: “Bu, iki ölkə liderinin ortaya qoyduğu siyasi iradə və Şuşa Bəyannaməsində öz əksini tapan yanaşmada aydın şəkildə ifadə olunur. Elə bir sahə yoxdur ki, Şuşa Bəyannaməsində öz əksini tapmasın. Bütün sahələr üzrə əməkdaşlığımız mövcuddur və bu əməkdaşlığın təməlləri kifayət qədər genişdir. Azərbaycan ilə Türkiyə arasındakı əməkdaşlıq, yalnız regional məsələlərlə məhdudlaşmır. Belə ki, Azərbaycan, Türkiyə və hər hansı Afrika ölkəsi arasında üçtərəfli formatda əməkdaşlığın həyata keçirilməsi üçün də geniş imkanlar mövcuddur”. O bildirib ki, 2025-ci ilin dekabr ayında Azərbaycan və Türkiyə arasında Hökumətlərarası Komissiyanın iclasının nəticəsi olaraq iki ölkə arasında yalnız iqtisadi sahəni əhatə edən 110 bənddən ibarət yol xəritəsi qəbul olunub. Bu yol xəritəsi qarşıdakı illərə hesablanmış mühüm sənəddir.

C.Bayramovun sözlərinə görə, Türk Dövlətləri Təşkilatının həm Azərbaycan, həm də Türkiyə üçün xüsusi önəmi var. Burada əlaqələrin daha da gücləndirilməsi və əməkdaşlığımızın daha da mükəmməlləşdirilməsi Azərbaycan və Türkiyə üçün hər zaman xüsusi əhəmiyyət kəsb edir. “Azərbaycan və Türkiyənin iştirakı ilə bir sıra önəmli əməkdaşlıq formatları mövcuddur. Bunların sırasında üçtərəfli və dördtərəfli formatları qeyd edə bilərik. Misal üçün, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Özbəkistan, Azərbaycan-Türkiyə-Pakistan və bir sıra digər formatları göstərmək mümkündür. COP29 sədri olaraq ölkəmiz yaxın zamanda COP31-ə ev sahibliyi edəcək Türkiyəyə tam dəstək verir”, - deyə nazir əlavə edib.

Onun sözlərinə görə, Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi 2025-ci ildə 5,7 milyard ABŞ dolları təşkil edib. 2026-cı ilin ilk 8 ayında isə bu göstərici 3,2 milyard ABŞ dollarına çatıb. “Azərbaycanın Türkiyəyə yatırdığı investisiyaların həcmi 20 milyard ABŞ dollarına, Türkiyənin Azərbaycana yatırdığı investisiyaların həcmi isə 18 milyard ABŞ dollarına çatıb. Hazırda Azərbaycanda Türkiyənin 400-dən çox şirkəti fəaliyyət göstərir”, - deyə nazir qeyd edib.

C.Bayramov onu da deyib ki, Cənub Qaz Dəhlizi təkcə Azərbaycan və Türkiyənin deyil, bu böyük və geniş coğrafiyanın enerji təhlükəsizliyinə iki ölkənin iştirakı ilə verilən çox böyük töhfədir. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin genişləndirilməsi ilə bağlı işlərin böyük həcmdə tamamlandığını deyən nazir qeyd edib ki, hazırkı mərhələdə iki ölkə arasında böyük perspektivə və potensiala malik, növbəti onilliklərə yönəlmiş məsələlər üzərində çox koordinasiyalı şəkildə işlər həyata keçirilir. “224 kilometrlik ərazidə konkret işlər görülür. Azərbaycanın əsas hissəsindən yeni nəqliyyat infrastrukturunun yaradılması istiqamətində işlər sürətlə davam edir.

### C.Bayramov: Yol xəritəsi qarşıdakı illərə hesablanmış mühüm sənəddir

Azərbaycanın əsas hissəsindən Ermənistan sərhədi istiqamətində yol tikintisinin təxminən 95 faizi artıq tamamlanıb. Dəmir yolunun icra səviyyəsi isə təxminən 75 faiz təşkil edir. Hər iki layihənin Azərbaycanın əsas hissəsində 2027-ci ilin ilk yarısında başa çatdırılması nəzərdə tutulur”, - deyə nazir qeyd edib.

### H.Fidan: 2028-ci ilin sonuna qədər işlərin yekunlaşdırılması planlaşdırılır

Türkiyənin xarici işlər naziri Hakan Fidan da bildirib ki, Azərbaycan və Türkiyə arasında ən yüksək səviyyədə formalaşmış bir münasibət mövcuddur: “Bu səfərin mühüm bir tarixi əhəmiyyəti də var. Bu gün (dünən - red.) Bakı şəhərinin azad edilməsinin 108-ci ildönümüdür”. Onu sözlərinə görə, prezidentlərimiz tərəfindən qarşıya qoyulan 15 milyard dollarlıq ticarət dövriyyəsi hədəfinə ən qısa zamanda çatmaq üçün bütün qurumlarımız, peşə təşkilatlarımız və ticarət palatalarımız var gücü ilə çalışır. “Enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlığımız da münasibətlərimizin digər strateji istiqamətini təşkil edir. Bu sahədə hazırda çoxsaylı layihələr həyata keçirilir. Bakı-Tbilisi-Qars dəmir yolunu Orta Dəhlizin ən mühüm tərkib hissələrindən biri hesab edirik”, - deyə nazir əlavə edib.

H.Fidan qeyd edib ki, Orta Dəhlizin həyata keçirilməsində Azərbaycan və Türkiyə əhəmiyyətli rol oynayır. Bu layihə Türkiyəni Xəzər dənizi vasitəsilə Türk dünyası ilə birləşdirir. Onun sözlərinə görə, hazırda Qars-Dilucu dəmir yolu layihəsinin həyata keçirilməsi istiqamətində işlər aparılır: “2028-ci ilin sonuna qədər bu işlərin yekunlaşdırılması planlaşdırılır. Bundan sonra Azərbaycandan yola çıxan qatarların Türkiyəyə birbaşa keçidi mümkün olacaq”.

*Nardar BAYRAMLI*

# 22-ci səfər...

## Ermənilər niyə narahatdır?

**Azərbaycan dövləti öz ərazilərini erməni işğalından azad etdikdən sonra Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm quruculuq işləri həyata keçirilir. 30 illik işğal dövründə həmin ərazilər tamamilə dağıdılıb, əsl vandalizm həyata keçirilib. Ona görə də, dövlətimiz üçün bu gün başlıca prioritet Qarabağ və Şərqi Zəngəzurda quruculuq və bərpa işlərini ən yüksək səviyyədə həyata keçirməkdir.**

### Səfərin özəlliyi...

Torpaqlarımız işğaldan azad edildikdən sonra xarici qonaqlar da bu ərazilərə mütəmadi səfərlər edirlər. Eləcə də, ölkəmizdəki diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərləri təşkil olunur. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə sentyabrın 11-12-də də Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura ikigünlük səfəri baş tutub. Səfərdə 58 ölkə və 9 beynəlxalq təşkilatı təmsil edən 150 nəfərdən ibarət heyət iştirak edib. Səfər çərçivəsində diplomatik korpusun nümayəndələri Prezident İlham Əliyevin rəhbərliyi ilə Xankəndi və Şuşa şəhərlərində, Ağdərə və Kəlbəcər rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq və inkişaf prosesi çərçivəsində reallaşdırılan sosial və iqtisadi infrastruktur layihələri, eləcə də tarixi-mədəni irs nümunələrinin mövcud vəziyyəti, onların qorunması və bərpası istiqamətində görülən tədbirlərlə tanış olublar. Bu, diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə 2020-ci ildən etibarən sayca 22-ci səfəridir. Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura səfərlərinin təşkil olunması bu ərazilərdə ermənilər tərəfindən törədilmiş vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılması və erməni yalanlarının ifşası baxımından da mühüm əhəmiyyətə malikdir. Azərbaycan 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbəni diplomatik müstəvidə də davam etdirir. Bütün bunların fonunda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin təşkil edilməsi çox uğurlu addımdır. 44 günlük müharibədən əvvəlki dövrə qədər ermənilər ərazilərimizdə törətdikləri vəhşilikləri gizlədərək dünya ictimaiyyətini aldadırdılar. Lakin ordumuz torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra ermənilərin ərazilərimizdə törətdikləri vəhşilikləri gizlətmək imkanını itirdilər və indi onların 30 il ərzində etdikləri qeyri-insani əməllər bütün dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

### İcma: Azərbaycanın daxili işlərinə qarışmayın!



Bu gün isə diplomatlar azad olunmuş ərazilərdə möhtəşəm quruculuq işlərinə də şahidlik edirlər. Onlar “Böyük Qayıdış” Proqramı çərçivəsində uğurla icra olunan layihələr barədə məlumatlar əldə ediblər. Bütövlükdə, diplomatik korpus nümayəndələrinin səfəri həyata keçirilən işlərin miqyasını və regionun inkişaf potensialını yaxından görmək, həmçinin işğaldan azad edilmiş ərazilərin davamlı bərpası, sosial-iqtisadi dirçəlişi və reinteqrasiyasının təmin olunması istiqamətində Azərbaycanın səylərini dəyərləndirmək imkanı yaradır.

Lakin diplomatların Qarabağ və Şərqi Zəngəzura növbəti səfəri Ermənistanda ciddi “narahatlıq” doğurub. Belə ki, erməni mediasında və sosial şəbəkələrdə diplomatlar bu səfərə görə əsassız olaraq hədəfə alınırlar. Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması bəyanat verib. İcma Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun Qarabağ və Şərqi Zəngəzura son səfərinə Ermənistanın kəskin reaksiya verməsini qətiyyətlə pisləyib və bunu ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə açıq hörmətsizlik kimi qiymətləndiririb. “Azərbaycan və Ermənistanın sülhə doğru yaxınlaşdığı bir vaxtda bu cür dağıdıcı addımlar sülh prosesinə zərbə vurur, qarşılıqlı etimadı zədələyir və revanşist qüvvələrin dəyirmanına su tökür. İcma Ermənistanın bu yanaşmasını Azərbaycanın daxili işlərinə müdaxilə cəhdi və irredentizmin yenidən alovlandırılmasına yönəlmiş addım hesab edir. Bu, eyni zamanda, Ermənistanın sülh və normallaşma prosesində səmimi olmadığını göstərir. Erməni cəmiyyəti Azərbaycanın suveren ərazisi və tarixi mövzular ilə bağlı əsassız iddialar səsləndirmək əvəzinə, ilk növbədə, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin mədəni-tarixi irsin inkar və təhrif edilməsinə, eləcə də dağıdılmasına son qoyulmasına diqqət yetirməlidir. Bu, iki ölkə və cəmiyyət arasında davamlı sülhün bərqərar olmasına xidmət edən əməli addım olardı”, - deyə bəyanatda qeyd edilib.

### “Sülh Körpüsü”: Bu səfər mübahisə mövzusu ola bilməz



“Sülh Körpüsü” Təşəbbüsünün Azərbaycan üzrə qrupu da məsələ ilə bağlı açıqlama yayıb. Qrup sentyabrın 11-12-də diplomatik korpusun Azərbaycan Respublikasının Qarabağ və Şərqi Zəngəzur bölgələrinə səfəri ilə bağlı Ermənistan mediasının nümayiş etdirdiyi qərəzli münasibət və ictimai müzakirələrdəki qəbuledilməz ton ilə bağlı dərin məyusluğunu bildirib. “Əvvəla, diplomatik korpusun Azərbaycan Respublikasının suveren ərazisinə səfəri özlüyündə mübahisə mövzusu ola bilməz. Xüsusilə bu səfərdə iştirak etdiklərinə görə, səfirlərə və dövlətlərə yönəlmiş hücum xarakterli bəyanatlar narahatlıq doğurur, Ermənistanın Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıması öhdəliyi ilə ziddiyyət təşkil edir. Azərbaycan və Ermənistan hazırda münaqişədənsonrakı mərhələdədir, hər iki ölkə onilliklər boyu davam edən qarşıdurmanın fəsadlarını aradan qaldırmaq kimi məsuliyyətli bir missiya ilə üzədir. Sülh təşəbbüslərinin bir hissəsi kimi biz - vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycan və Ermənistan hökumətlərinin dəstəyi ilə sülh prosesini dəstəkləmək, dialoqu təşviq etmək və etimad quruculuğu tədbirlərinə töhfə vermək üçün addımlar atırıq”,- deyə açıqlamada qeyd olunub.

Diqqətə çatdırılıb ki, Azərbaycanın ərazisindəki mədəni irs Azərbaycan xalqına məxsusdur və dövlət tərəfindən qorunur. Ədaləti təmin etmək üçün mədəni irs qarşılıqlılıq və açıq dialoq prinsipləri əsasında müzakirə olunmalıdır. Bu məqsədlərə nail olmaq üçün vətəndaş cəmiyyəti nümayəndələri Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin ayrılmaz tərkib hissəsi olan məsələlərin peşəkar müstəvidə müzakirəsi məqsədilə platforma təsis ediblər.

“Sülh prosesinin revanşist qüvvələrin təzyiqinə məruz qalmasına yol verilməməlidir. Çünki bu, sülhə doğru irəliləyişi ciddi şəkildə təhlükə altına sala bilər. Biz Ermənistan cəmiyyətini bu məqsədlə təmkinli mövqe nümayiş etdirməyə, Ermənistanda və onun hüdudlarından kənarda müəyyən şəxslərin bədniyyətli gündəliyinə rəvac verməməyə dəvət edirik”, - deyə açıqlamada vurğulanıb.

*Nardar BAYRAMLI*



# Əmək Məcəlləsinə və "Aviasiya haqqında" Qanuna dəyişiklik ediləcək

Sentyabrın 14-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. Komitə sədri Musa Quliyev 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Əmək və sosial siyasət komitəsinin fəaliyyəti barədə məlumat verib.

Daha sonra gündəliyin ikinci məsələsi - Əmək və sosial siyasət komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verilib. Bildirilib ki, növbəti sessiyada əsasən büdcə məsələləri müzakirə ediləcək, qanunvericilik təşəbbüsü əsasında təqdim olunmuş qanun layihələrinə baxılacaq, həmçinin komitənin səlahiyyət dairəsinə daxil olan mövzular üzrə müzakirələrin təşkili nəzərdə tutulur.

Gündəlikdə üçüncü məsələ olan Əmək Məcəlləsində və "Aviasiya haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi ilə bağlı komitə sədri deyib ki, qanunvericiliyə əsasən, ölkəmizdə gündəlik ümumi iş saatı limitləri müəyyənləşdirilib. Lakin beynəlxalq uzunmüddətli uçuşlar zamanı mövcud iş vaxtı məhdudiyyətləri uçuşların səmərəli təşkilinə mane olur. Qanun layihəsində təklif olunan dəyişikliklər isə, uzunmüddətli uçuşların həyata keçirilməsi üçün hava gəmisi heyətinin iş və istirahət rejiminin aviasiyanın xüsusiyyətləri nəzərə alınmaqla beynəlxalq standartlara uyğun daha çevik tənzimlənməsini nəzərdə tutur.

Gündəliyin sonuncu məsələsi olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə də komitə sədri məlumat verib. Bildirilib ki, qanun layihəsinin əsas məqsədi küləkli hava şəraitində açıq iş yerlərində işin dayandırılmasını, həmçinin müasir yükqaldırıcı qurğuların texniki imkanları və küləyə davamlılıq göstəriciləri nəzərə alınmaqla küləkli hava şəraitində təhlükəsiz və səmərəli istismarını tənzimləməkdir.

İclasda komitənin ötən sessiyada görülmüş işlər barədə hesabatı məqbul hesab olunub, payız sessiyası üçün iş planının layihəsi təsdiqlənib və gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

*N.BAYRAMLI*

# İnkişaf strategiyasının hədəflərindən biri

## "Makroiqtisadi dayanıqlılıq" üzrə işçi qrupun növbəti iclasında nələr müzakirə olunub?

Mərkəzi Bankda (MB) "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə bağlı "Makroiqtisadi dayanıqlılıq" üzrə işçi qrupun növbəti iclası keçirilib. İclasda Strategiyanın "Daxili və xarici təsirlərə dayanıqlılıq məqsədi"nin 3 fəaliyyət istiqaməti çərçivəsində təsdiq edilmiş 15 tədbirin cari dövr üzrə monitorinq və qiymətləndirmə nəticələri müzakirə olunub.

Mərkəzi Bankın sədrinin birinci müavini və işçi qrupun sədri Əliyar Məmmədyarov "Daxili və xarici təsirlərə dayanıqlılıq məqsədi" üzrə icra nəticələri və əldə olunmuş nailiyyətlər barədə danışaraq Mərkəzi Bank tərəfindən həyata keçirilmiş təşəbbüsləri diqqətə çatdırıb.

Görüşdə Mərkəzi Bank, işçi qrupun üzvləri və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nümayəndələri arasında "Daxili və xarici təsirlərə dayanıqlılıq məqsədi" üzrə həyata keçirilmiş tədbirlərin icra vəziyyəti, cari il üzrə monitorinq və qiymətləndirmənin nəticələri, əldə olunmuş nailiyyətlər və qarşıda duran məsələlər ətrafında müzakirələr aparılıb, həyata keçirilən fəaliyyətlərin effektivliyinin daha da artırılması istiqamətində növbəti addımlar müəyyən edilib.

### Şaxələnmiş iqtisadiyyat dayanıqlılığı təmin edib

Xatırladaq ki, "Makroiqtisadi dayanıqlılıq" üzrə işçi qrupu Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan tədbirlərin icrasının təmin edilməsi və aidiyyəti dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə yaradılıb. Makroiqtisadi dayanıqlılıq ölkə iqtisadiyyatının daxili və xarici şoklara, böhranlara və qiymət dəyişikliklərinə qarşı tab gətirmək, eləcə də sabit inkişafı qoruyub saxlamaq qabiliyyətidir. Bura inflyasiya sabitliyi və qiymətlərin kəskin artımının qarşısının alınması və hədəf diapazonda idarə olunması, bank və maliyyə sektorunun etibarlı və sağlam fəaliyyətinin təmin edilməsi, dövlət büdcəsinin və




pul-kredit siyasətinin iqtisadi dəyişikliklərə uyğun çevik tənzimlənməsi, valyuta ehtiyatlarının adekvat səviyyədə olması və xarici ticarət tarazlığı kimi amillər daxildir.

Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmalıdır. Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün əsas məqsəd iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır.

### İnflyasiya həddi və manatın sabitliyi qorunur

Xarici təsirlərə dayanıqlıq sütunlarından birini dövlətin valyuta ehtiyatları, digərini isə intizamlı borclanma təşkil edir. Xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması üçün Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payı tədricən azaldılmalıdır. Məcmu borc makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinə xidmət etməlidir. Daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi-dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Eləcə də, makroiqtisadi sabitliyin əsas meyarı olan qiymətlərin aşağı və stabil olması əsas prioritetlərdəndir. Bu sabitlik iqtisadiyyatda gözləntiləri yaxşılaşdırır, əhalinin yığımlarını dəyərsizləşmədən qoruyur və və investisiyaları artırır. Makroiqtisadi sabitliyin digər mühüm meyarı olan dayanıqlı maliyyə sabitliyi maliyyə bazarlarının daim effektiv və səmərəli fəaliyyət göstərməsini, maliyyə dərinliyinin artmasını və maliyyəyə çıxışın genişlənməsini şərtləndirir.

Məhz bu dayanıqlılıq tədbirləri nəticəsində 2026-cı ilin ötən dövründə ÜDM-in real ifadədə 1,2 faiz artımı təmin olunub, sənaye və istehsal proseslərində dinamika qorunub saxlanılıb. İnflyasiya qorunan orta həddə saxlanılıb. Makroiqtisadi sabitliyin əsas dayağı kimi dolların manata qarşı məzənnəsinin 1,70 manat səviyyəsində qalması təmin edilib. Ölkəmizin strateji ehtiyatları artaraq 90 milyard dolları ötüb, xarici dövlət borcu azalaraq 4,5 milyard dollara düşüb.

Ölkədə ÜDM-in artımının tamamilə qeyri-neft-qaz sektorunun hesabına formalaşması iqtisadiyyatın şaxələndirilməsi, özəl sektorun gücləndirilməsi istiqamətində mühüm nailiyyətdir. Bu tendensiya iqtisadi sabitliyin daha da möhkəmlənməsinə və uzunmüddətli dayanıqlı inkişafın təmin olunmasına xidmət edir.

### Yeni hədəflər və proqnozlar

Ümumilikdə, o, beynəlxalq təcrübə və yerli xüsusiyyətlər nəzərə alınmaqla təklif olunan tədbirlərin həyata keçirilməsi ölkədə makroiqtisadi dayanıqlığın gücləndirilməsi, maliyyə sabitliyinin daha da artırılması, həmçinin maliyyə sektorunun inkişaf etdirilərək iqtisadi artımda rolunun gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Hazırda strategiyanın davamı kimi "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində makroiqtisadi dayanıqlılıq istiqaməti üzrə strateji tədbirlərin müəyyənləşdirilməsi, onların aralıq və yekun hədəflərinin formalaşdırılması, müvafiq tədbirlərin əsaslandırılması və tələb olunan maliyyə ehtiyaclarının qiymətləndirilməsi nəzərdə tutulur.

Qarşıdakı 3 ildə sabitlik fonunda iqtisadi artım proqnozu müsbət dinamika ilə xarakterizə olunur. Proqnozlara əsasən 2027-ci ilin sonuna ÜDM-in həcmi 139 milyard manat təşkil edəcəyi, 2030-cu ildə isə 166,9 milyard manata qədər artacağı gözlənilir. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 2025-ci ildəki 71,5 faizdən 2027-ci ildə 78 faizə, 2030-cu ildə isə 81,8 faizə çatacağı gözlənilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3, faiz, qeyri-neft-qaz ÜDM-in 4,2 faiz olacağı proqnozlaşdırılır.

*E.CƏFƏRLİ*

# BOKT-larla bağlı yeni qaydalar

## Mərkəzi Bank borclanmanın yeni limitlərini müəyyən edib

Mərkəzi Bank (MB) bank olmayan kredit təşkilatlarının (BOKT) öhdəliklərinin kapitala nisbətini üç həddə - 1, 3 və 10 mislində müəyyənləşdirib. Məqsəd BOKT vəsaitlərinin aidiyyəti şəxslərə - təşkilatın təsisçilərinə, inzibatçılarına, struktur bölmələrinin rəhbərlərinə və onların yaxın qohumlarına yönəldilməsinin qarşısının alınmasıdır. Mərkəzi Bankın Bank olmayan kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin direktoru Xəyyam İsmayılov bildirib ki, əvvəlki dövrdə BOKT-larda aidiyyəti şəxslərlə bağlı müəyyən edilmiş hədd 30 faiz olub. Bu göstəriciyə yenidən baxılıb və banklarda tətbiq olunan yanaşmalar da nəzərə alınıb. Belə ki, fiziki şəxslər üzrə 5 faiz, hüquqi şəxslər üzrə 10 faiz, bütün aidiyyəti şəxslər üzrə isə ümumilikdə 15 faiz hədd müəyyənləşdirilib. Əsas məqsəd bir borcalandan asılılıq tələbindən fərqli olaraq, aidiyyəti şəxslərə verilən kreditlərin ümumi həcminin hədindən artıq cəmləşməsinə imkan verməməkdir.

Bununla BOKT-ların vəsaitlərinin aidiyyəti şəxslərə deyil, daha çox əhalinin kreditləşdirilməsinə yönəldilməsi hədəflənir.

Qeyd edək ki, hazırda ölkədə 53 BOKT fəaliyyət göstərir, 14 BOKT-da xarici kapital iştirak edir. 32 BOKT-da filial şəbəkəsi mövcuddur. Bunlardan 84 faizi Bakıdan kənardadır. Bu da banklarla müqayisədə daha geniş təmsil olunma deməkdir. BOKT-ların hazırda kredit bazarında fəallığı yüksəlsə də, bu, ümumilikdə bir sıra nöqsanlarla müşayiət edilir. Belə ki, bu təşkilatların təyin etdiyi istehlak kreditləri üzrə orta dərəcə 35 faizdir. Bu isə ölkə üzrə kredit dərəcəsindən az qala 2 dəfə çoxdur. BOKT-ların bu siyasəti problemli kreditlərin böyüməsinə səbəb olur.



### BOKT-lar kreditləri öz qohumlarına verir

2026-cı ilin ötən 8 ayı ərzində vaxtı keçmiş, yəni problemli kreditlərin məbləği 725 milyon manatı ötüb. Banklar və kredit təşkilatları ilin əvvəlindən daha çox kredit verib, ancaq nəzərdə tutulan qrafik və cədvəl üzrə kreditlərin geri alınması azalıb. Bu prosesdə BOKT-ların payı da az olmayıb. İstehlak kreditlərinin böyük həcmi məhz BOKT-ların üzərinə düşür. Bu qurumlar riskləri təhlil etmədən insanlara istehlak kreditlərinin verilməsində fəallıq edir. Hətta MB tərəfindən müəyyən edilmiş bir sıra faktlar təsdiq edir ki, BOKT-lar vəsaitlərini öz yaxın qohumlarına və digər aidiyyəti şəxslərə (təşkilatın təsisçiləri, inzibatçıları, struktur bölmələrinin rəhbərləri və s) yönəldir. Bu




isə kredit bazarı üçün arzuolunmaz hallara gətirib çıxarır. Problemli kreditlər bankların likvidliyinə, dayanıqlığına, dinamikliyinə mənfi təsir göstərir. Bu isə təkcə, likvidlik təhlükəsi ilə üzləşməkdə olan bəzi kommersiya bankları ilə yanaşı, BOKT-ların da bağlanmasına gətirib çıxara bilər.

### Faiz dərəcələri nizamlanacaq

Mövcud vəziyyəti nəzərə alan Mərkəzi Bank bank olmayan kredit təşkilatlarının problemli kreditləri ilə əlaqədar yeni qaydaların hazırlanmasına qərar verib. Ona görə də, qaydalar həm mövcud halların qarşısını almaq, həm də problemli kreditlərin artımında BOKT-ların şirnikləndirici siyasətini əngəlləmək məqsədi daşıyır. Bu, həm də təşkilatın vəsaitlərinin yaxın şəxslərə yönəldilməsinə və kreditlərin birbaşa əhalinin ehtiyaclarına istiqamətləndirilməsinə xidmət edəcək. Hazırda üzərində işlənilən yeni qaydaların digər istiqaməti həmin təşkilatlarda mövcud risklərin minimuma endirilməsinə və maliyyə sabitliyinin qorunmasına yönəlib. X.İsmayılovun fikrincə, bu sahədə lazımi araşdırmalar aparılır və hər hansı mənfi hallar müəyyən edildikdə qanunvericiliyin tələbləri baxımından müvafiq addımlar atılacaq. Məsələn, etibarlı məlumatların vaxtında təqdim edilməməsi ilə bağlı gecikmələr baş veribsə, bu məsələ ilə əlaqədar da qəti tədbirlər görüləcək.

Ümumilikdə, yeni institusional qaydaların tətbiqində əsas məqsədlərdən biri məhz faiz dərəcəsini nizamlamaq, cəlb olunan vəsaitin daha yüksək faizlərlə müştərilərə təqdim edilməsinin qarşısını almaqdır.

### İstehlak və biznes kreditləri arasında fərq qoyulmayıb

Digər məqsəd BOKT-ların kapital resursslarının möhkəmləndirilməsi, sağlamlaşdırılması və likvidliyin artırılmasıdır. Hazırda BOKT-ların kapital fondu təxminən 5 milyon manat təşkil edir, öhdəlikləri isə buna adekvat deyil. MB hesab edir ki, bu rəqəm 5 milyon manat və ya 15 milyon manat səviyyəsində olmalıdır. Həmçinin, bank olmayan kredit təşkilatlarının biznes kreditləri verməsində təşviqedici siyasətini təmin etməkdir. MB biznes kreditləri ilə bağlı tələblərin daha yumşaq olmasını nəzərə alaraq BOKT-ları diqqəti bu sahəyə yönəltməyə dəvət edir. Bu məsələdə məqsəd BOKT-ların biznes kreditlərini, xüsusilə mikro və biznes kreditlərini təşviq etməsidir. BOKT-ların əvvəlki dövrdə ehtiyatlanmasına baxdıqda, burada düzgün yanaşma olmadığı MB-nın tədqiqat sənədlərində aydın görünür, ümumilikdə bu qurumların kreditlər arasında hər hansı bölgü aparmadığı təsdiq olunub. Yəni istehlak və biznes kreditləri arasında fərq qoyulmayıb. İndiki yanaşmada isə istehlak, biznes və digər kreditlərə fərqli yanaşmanı təmin edəcək.

*E.CƏFƏRLİ*

# Dünənin, bu günün və gələcəyin partiyası








Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev hesabat məruzəsi ilə çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində xalqın etimadını doğruldaraq ölkənin siyasi, iqtisadi və ictimai inkişafında mühüm rol oynadığını bildirib. Qeyd edilib ki, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi strategiyanın Prezident, YAP Sədri İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilməsi ölkə tarixində mühüm nəticələrin əldə olunmasına imkan verib. Bildirilib ki, bu nailiyyətlərin ən mühüm mərhələlərindən biri torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam bərpa olunmasıdır.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən və məqsədyönlü siyasəti ölkənin sosial-iqtisadi və siyasi inkişafının fundamental əsaslarını formalaşdırıb. Bu strateji xəttin Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilməsi Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinə, dövlətçilik ənənələrinin inkişafına, eləcə də ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına şərait yaradıb.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova YAP-ın ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb. O, partiyanın rayon təşkilatının fəaliyyətinin sistemli şəkildə həyata keçirildiyini və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində mühüm işlər görüldüyünü diqqətə çatdırıb. Bahar Muradova Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasını dövlətçilik tariximizin ən mühüm nailiyyətlərindən biri kimi qiymətləndirib.

YAP İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət, xalqın həmrəyliyi və ordumuzun gücü nəticəsində ərazi bütövlüyümüz və suverenliyimiz təmin edilib. O, bu nailiyyətlərin Azərbaycanın regionda və beynəlxalq müstəvidə mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdiyini qeyd edib.

Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, şəhid anası Mehriban Əmrahova qeyd ediblər ki, partiya ötən illər ərzində cəmiyyətin böyük inamını qazanaraq bu etimadı əməli fəaliyyəti ilə doğruldub.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müavini Rafael Gülməmmədov partiyanın təşkilatlanma istiqamətində fəaliyyətindən danışıb. O, YAP-ın uzun illər ərzində ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığını və cəmiyyətin etimadını qazandığını bildirib.

Konfransda YAP Səbail rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP Yardımlı rayon təşkilatının XI konfransı keçirilib







Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Yardımlı rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Yardımlı rayon təşkilatının sədri Anar Alışov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, hesabat dövründə təşkilat qarşıya qoyulmuş vəzifələrin icrası istiqamətində məqsədyönlü fəaliyyət göstərib, rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Bildirilib ki, partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, ideoloji işin gücləndirilməsi və partiyanın əsas prinsiplərinin təbliği istiqamətində ardıcıl və səmərəli tədbirlər həyata keçirilib.

Milli Məclisinin deputatı Məşhur Məmmədov Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan uğurlardan, Azərbaycan xalqının rifahının daha da yaxşılaşdırılması istiqamətində yürüdülən siyasətin nəticələrindən danışıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ötən illər ərzində ölkənin ictimai-siyasi həyatında fəal iştirak edib, Azərbaycanın inkişafına və mühüm nailiyyətlər əldə etməsinə öz töhfəsini verib.

Daha sonra Yardımlı Rayon Heydər Əliyev Mərkəzinin direktor vəzifəsini müvəqqəti icra edən Zeynəb Məmişzadə, Şiləvəngə ərazi partiya təşkilatının sədri, Gavran kənd tam orta ümumtəhsil məktəbinin müəllimi Fərman Mustafayev ərazi partiya təşkilatlarının fəaliyyətindən, partiya üzvlərinin rayonun ictimai-siyasi həyatında fəal iştirakından söz açıblar.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Əli Axundov Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra fəaliyyətin daha səmərəli qurulması istiqamətində görülən işlərdən danışıb, rayon təşkilatının işini müsbət dəyərləndirib.

Konfransda YAP Yardımlı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Güclü iradə, aydın məqsəd, parlaq gələcək!







Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatının IV konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov hesabat məruzəsi ilə çıxış edib. O, Yeni Azərbaycan Partiyasının ötən dövr ərzində mühüm inkişaf yolu keçərək ölkənin aparıcı və mütəşəkkil siyasi qüvvəsinə çevrildiyini vurğulayıb. Qeyd olunub ki, YAP öz fəaliyyətində milli maraqların qorunmasını və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirib.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bu gün öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Həyata keçirilən siyasət ölkənin milli maraqlarına və dövlətçilik prinsiplərinə əsaslanır. Ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər ölkənin davamlı inkişafı və qarşıdakı hədəflərə inamla irəliləməsi üçün möhkəm zəmin yaradır.

YAP İdarə Heyətinin üzvü Rauf Əliyev diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyası tarixi sınaqlardan uğurla keçərək cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilib. 800 minə yaxın üzvünün olması partiyaya göstərilən yüksək ictimai etimadın və xalqın partiyaya olan inamının bariz göstəricisidir.

Daha sonra SOCAR “28 May” NQÇİ-nin rəisi Ramin Quliyev, Pirallahı Tibb Mərkəzi PHŞ-nin direktoru Şöhrət Söyziyev, Pirallahı Rayon Ağsaqqallar şurasının sədri Əli Kərimov və şəhid anası Çiçək Nəbiyeva çıxış edərək Yeni Azərbaycan Partiyasının xalqın və dövlətimizin taleyində mühüm rol oynadığını və Azərbaycanın güclü dövlət kimi təşəkkül tapmasında böyük xidmətlər göstərdiyini qeyd ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdir müavini Rafael Gülməmmədov isə Yeni Azərbaycan Partiyasının VII qurultayından sonra təşkilati sahədə görülən işlər, strukturun təkmilləşdirilməsi istiqamətində atılan addımlar və qarşıdakı dövr üçün müəyyənləşdirilən əsas prioritetlər barədə məlumat verib. O qeyd edib ki, partiyanın ictimai dayaqlarının möhkəmləndirilməsi, yerli təşkilatların fəaliyyətinin səmərəli təşkili, üzvlərlə işin keyfiyyətinin yüksəldilməsi və cəmiyyətlə əlaqələrin daha effektiv qurulması ilə sıx bağlıdır.

Konfransda YAP Pirallahı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# YAP zəngin inkişaf yolu keçib








Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Beyləqan rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Beyləqan rayon təşkilatının sədri Müşfiq Səfərov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, müasir müstəqil Azərbaycan Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm uğurlara imza atır. Müxtəlif sahələrdə həyata keçirilən islahatlar, Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan beynəlxalq əhəmiyyətli layihələr ölkəmizin daha da güclənməsinə, iqtisadi və siyasi mövqelərinin möhkəmlənməsinə mühüm töhfə verir.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsində qazanılmış Qələbə və 2023-cü ildə keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin suverenliyinin tam bərpa edildiyini vurğulayıb. O qeyd edib ki, aparılan bərpa və quruculuq işləri ilə işğaldan azad olunmuş ərazilərimiz yenidən canlanır.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov vurğulayıb ki, partiyanın milli maraqlara əsaslanan siyasi mövqeyi ölkənin davamlı inkişafına və dövlətçilik ənənələrinin möhkəmləndirilməsinə xidmət edir. O həmçinin qeyd edib ki, YAP Beyləqan rayon təşkilatı hesabat dövründə fəallığı ilə seçilib, qarşıya qoyulan vəzifələrin icrasında partiya üzvlərinin birgə fəaliyyəti mühüm rol oynayıb.

Rayon Ağsaqqallar Şurasının sədri, partiya veteranı Etibar İmanov qeyd edib ki, Azərbaycan xalqı tarixi Zəfərlərin qürurunu və sevincini yaşayır. Bu möhtəşəm nailiyyətlərin əldə olunmasında Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının mühüm rolu var.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasi xəttindən, dövlətçilik ənənələrinin qorunub möhkəmləndirilməsindəki mühüm rolundan danışıb. Qeyd olunub ki, partiya ötən illər ərzində cəmiyyətin böyük etimadını qazanıb və bu etimadı ardıcıl, məqsədyönlü fəaliyyəti ilə doğruldub.

Konfransda YAP Beyləqan rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır








Sentyabrın 15-də Yeni Azərbaycan Partiyası (YAP) Xocalı rayon təşkilatının XI konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Xocalı rayon təşkilatının sədri Vahid Əliyev hesabat məruzəsi ilə çıxış edib. Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyası bu gün ölkənin aparıcı siyasi qüvvəsi kimi fəaliyyətini uğurla davam etdirir. YAP ötən illər ərzində böyük inkişaf yolu keçərək xalqın etimadını qazanıb və aparıcı mövqeyə yüksəlib. Partiyanın yerli təşkilatları da dövlət siyasətinin təbliğində mühüm rol oynayır.

Xocalı Rayon İcra Hakimiyyətinin başçısı Şahmar Usubov qeyd edib ki, 44 günlük Vətən müharibəsi dövründə Xocalının bir sıra kəndlərinin işğaldan azad olunması ilə başlanan proses 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən antiterror tədbirləri nəticəsində Xocalının və bütün kəndlərinin tam azad olunması ilə başa çatmışdır. Bu gün isə Xocalıya qayıdış prosesi həyata keçirilir, genişmiqyaslı yenidənqurma işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, sosial obyektlər istifadəyə verilir.

YAP Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Elman Məmmədov bildirib ki, müasir Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Onun sözlərinə görə, son illərdə ölkəmizin əldə etdiyi mühüm nailiyyətlər, həyata keçirilən irimiqyaslı layihələr, sosial-iqtisadi inkişaf və beynəlxalq müstəvidə möhkəmlənən mövqelər Azərbaycanın tərəqqi yolunda inamla irəlilədiyini nümayiş etdirir.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə bildirib ki, YAP-ın fəaliyyəti ölkəmizdə sabitliyin və milli həmrəyliyinin qorunmasında mühüm əhəmiyyətə malikdir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının sıralarında birləşən insanlar rayonun ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Konfransda YAP Xocalı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib

# Ankara-Dəməşq: təhlükəsizlik gündəliyindən iqtisadi tərəfdaşlıq mərhələsinə keçid

Yaxın Şərq və ümumilikdə region son illərdə mürəkkəb geosiyasi proseslərin, təhlükəsizlik çağırışlarının və yeni siyasi reallıqların formalaşdığı məkan kimi diqqət çəkir. Belə bir şəraitdə Türkiyənin həyata keçirdiyi fəal və çoxşaxəli siyasət onun regional proseslərdəki rolunu əhəmiyyətli dərəcədə gücləndirib. Ankara yalnız öz milli təhlükəsizliyinin təmin olunması deyil, eyni zamanda yer-

## Ərdoğan Dəməşqə gedəcək

ləşdiyi coğrafiyada davamlı sülhün, sabitliyin və iqtisadi inkişafın təşviqi istiqamətində ardıcıl addımlar atır. Türkiyənin diplomatik imkanları, iqtisadi potensialı və təhlükəsizlik sahəsindəki təsir imkanları onu regionun aparıcı aktorlarından birinə çevirib.

Bu baxımdan Suriya istiqaməti xüsusi əhəmiyyət daşıyır. Uzun müddət qarşıdurma və qeyri-sabitliklə xarakterizə olunan Suriya ilə Türkiyə arasında münasibətlər son dövrdə yeni mərhələyə qədəm qoyub. Siyasi dialoqun intensivləşməsi, qarşılıqlı təmasların artması və yüksək səviyyəli səfərlər Ankara-Dəməşq münasibətlərində yeni yanaşmaların formalaşdığını göstərir. Qarşılıqlı səfərlər yalnız diplomatik protokol xarakteri daşımır, həm də tərəflərin təhlükəsizlik, terrorla mübarizə, sərhəd məsələləri, iqtisadi əməkdaşlıq və Suriyanın gələcək inkişafı ilə bağlı mövqelərinin yaxınlaşdırılması baxımından mühüm platformaya çevrilir.

Türkiyənin bu prosesdə əsas məqsədlərindən biri Suriyanın ərazi bütövlüyünün və sabitliyinin möhkəmlənməsinə, ölkədə normal həyatın və iqtisadi fəaliyyətin bərpasına şərait yaratmaqdır. Bu siyasət Ankaranın regionda yalnız hadisələrə reaksiya verən deyil, proseslərin istiqamətinə təsir göstərən aparıcı güc kimi mövqeyini daha da möhkəmləndirir.

Qeyd edildiyi kimi, əlaqələrin dinamik hal alması qarşılıqlı təmaslarla da bağlıdır. Xatırladaq ki, ötən ay Suriyanın xarici işlər naziri Əsəd Həsən Şeybani Türkiyəyə səfər etmişdi. Bu dəfə isə Türkiyənin xarici işlər naziri Hakan Fidan Dəməşqi ziyarət edib. Sentyabrın 13-də Suriyaya gələn Türkiyə XİN başçısı iki gün ərzində bir neçə görüş keçirib. O, Suriya Prezidenti Əhməd əl-Şaraa tərəfindən qəbul edilib. Qəbulda ikitərəfli münasibətlərin detalları müzakirə olunub, siyasi-iqtisadi əlaqələrin gücləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Fidan Dəməşq rəhbərliyi ilə münasibətlərin son iki ildə əhəmiyyətli dərəcədə inkişaf etdiyini və YPG-nin dağıdılması qərarının yerindəcə tətbiq edilməli olduğunu bildirib. Fidan Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın gələcəkdə Suriyaya səfər etməyi planlaşdırdığını söyləyib.

## İki günlük səfər

Fidan Ərdoğanın səfərdən əvvəl Yüksək Planlaşdırma Qrupunun görə biləcəyi işləri nəzərdən keçirdiyini söyləyərək, bu səfərin əhəmiyyətini vurğulayıb.

## İkitərəfli ticarətin həcmi 10 milyarda çatdırılacaq...

Müzakirələrdə YPG məsələsinə də toxunulub. Bildirilib ki, YPG-nin silahları yerə qoyaraq özünü buraxma qərarı barədə bəyannaməsi vacib və dəyərli hesab olunur. Nazir Fidan qeyd edib ki, bu addım təxirə salınmadan tətbiq olunmalı, yerindəcə həyata keçirilməlidir. Bu, Suriya hökumətinin konstruktiv səylərinə konstruktiv cavabdır: "Suriyanın hər gün iqtisadi cəhətdən inkişaf etdiyini görürük. Bu, təkcə Suriya xalqı üçün deyil, həm də bölgə üçün vacib xəbərdir".

Üçtərəfli görüş zamanı iki ölkə arasında əlaqələr və müxtəlif sahələrdə davam edən əməkdaşlıq, regional və qlobal arenada baş verən son hadisələr müzakirə olunub. Fidan bildirib ki, Kürd vətəndaşlarının inteqrasiya prosesində daha inamlı və firavan olmasını gözləyirik: "Türkiyə bu mövzuda böyük həssaslıq göstərir. ABŞ Suriyanı terrorizmi dəstəkləyən ölkələr siyahısından çıxardı. Bu, xüsusilə investorlar üçün vacib xəbərdir. Biz onları təbrik edirik. Suriyanın nüvə dosyesi də bağlanıb. Türkiyə olaraq bu mövzuda hər cür konstruktiv töhfələr verməyə çalışırıq".

Vurğulanıb ki, ikitərəfli ticarət həcminin 10 milyard dollara çatdırılması hədəflənir. Hörmüz boğazındakı son hadisələrdən sonra Suriyanın bu məsələdə mühüm rol oynayacağına inam artır. "Türkiyə vasitəsilə Avropaya bağlı bir Suriya var. Bunu praktik olaraq avtomobil yolları və dəmir yollarının çəkilməsi yolu ilə həyata keçirməyi hədəfləyirik. Suriyanın iqtisadi cəhətdən gündən-günə inkişaf etdiyini görürük. Bu, təkcə Suriya xalqı üçün deyil, həm də region üçün vacib xəbərdir", - deyə XİN başçısı qeyd edib.



## "Suriyanın yenilənməsi bölgəyə sabitlik və sülh gətirib"

Xarici işlər naziri Hakan Fidan Suriyaya səfəri çərçivəsində Dəməşqdə Suriya xarici işlər naziri Əsəd Həsən Şeybani və daxili işlər naziri Enes Hattab ilə də üçlü görüş keçirib. Bildirilib ki, yeni Suriya bölgəyə sabitlik gətirir. Qeyd olunub ki, Suriya-Türkiyə münasibətləri son iki ildə əhəmiyyətli dərəcədə inkişaf edib. Suriya təkcə Türkiyə ilə deyil, həm də dünya ilə yeni bir başlanğıc etməli olub. Suriyanın yenilənməsi bölgəyə sabitlik və sülh gətirib. Suriya dövləti və hökuməti bütün sahələrdə region ölkələriylə əməkdaşlığı inkişaf etdirmək üçün böyük səylər göstərir. Vurğulanıb ki, Suriyanın hər gün yaralarını getdikcə daha çox sağaltdığını görürük. Bölgəmizdəki bütün müharibələr, Suriyada olduğu kimi, bir-bir başa çatacaq.

## Səfərdən gözləntilər...

Qeyd edək ki, Prezident Rəcəb Tayyib Ərdoğanın yaxın vaxtlarda Dəməşqə planlaşdırılan səfəri Türkiyə - Suriya münasibətlərində yeni mərhələnin siyasi baxımdan rəsmiləşdirilməsi kimi qiymətləndirilir. Türkiyə xarici işlər naziri Hakan Fidan Dəməşqdə olan zaman səfərlə bağlı planlardan söhbət açıb və hazırda səfərin detalları üzərində iş aparıldığını bildirib.

Politoloqların mümkün yanaşmalarına görə və Hakan Fidanın səfəri zamanı önə çıxan əsas prioritetlərdən biri kimi səfərdən ilk gözlənti təhlükəsizlik və terrorla mübarizə sahəsində daha konkret mexanizmlərin formalaşdırılmasıdır. Xüsusilə YPG/SDG qüvvələrinin Suriya dövlət strukturlarına inteqrasiyası məsələsinin praktiki mərhələyə keçirilməsi Ankara üçün əsas prioritetlərdən biri ola bilər.

Digər bir əsas gözlənti isə Türkiyənin Suriyanın yenidən qurulmasında iştirakının genişlənməsidir. Səfər zamanı iqtisadiyyat, enerji, nəqliyyat, ticarət və infrastruktur layihələri üzrə yeni razılaşmaların əldə olunması ehtimalı yüksək qiymətləndirilir. Beləliklə, Ankara-Dəməşq münasibətləri təhlükəsizlik gündəliyindən iqtisadi tərəfdaşlıq mərhələsinə keçid edə bilər.

Siyasi mütəxəssislər onu da qeyd edirlər ki, səfər çərçivəsində Prezident Ərdoğan Suriyanın regional və beynəlxalq mövqeyinin möhkəmləndirilməsi baxımından da mühüm siyasi mesajlar səsləndirə bilər. O baxımdan ki, Türkiyə Suriyanın ərazi bütövlüyünü dəstəkləməklə yanaşı, Dəməşqin dövlət institutlarının gücləndirilməsində də daha fəal rol oynamiaq niyyətindədir. Bu isə Ankaranın Suriyada uzunmüddətli strateji mövcudluğunun yeni formatını müəyyənləşdirə bilər.

Nəhayət, bəzi analitiklər səfərin Türkiyə-Suriya münasibətlərindən daha geniş regional nəticələr doğuracağını gözləyirlər. Çünki hazırda Türkiyənin Suriyadakı fəallığı İsrail və digər regional aktorlarla münasibətlərə də təsir edir. Beləliklə, Ərdoğanın Dəməşq səfəri sadəcə ikitərəfli münasibətlərin deyil, Yaxın Şərqdə yeni təhlükəsizlik və əməkdaşlıq arxitekturasının formalaşmasında mühüm siyasi hadisəyə çevrilə bilər.

***P.İSMAYILOV***

# Yeni dünya nizamının "soyuq cəbhəsi"

## Arktikada yeni strateji savaş başlayır?

XXI əsrin ikinci onilliyindən etibarən formalaşan yeni dünya nizamında güc mərkəzləri arasında strateji ərazilər uğrunda mübarizə getdikcə daha açıq xarakter almaqdadır. Yaxın və Orta Şərqdə baş verən proseslər, Mərkəzi Avropada təhlükəsizlik böhranı, Asiya-Sakit okean məkanında ABŞ-Çin rəqabətinin dərinləşməsi göstərir ki, XXI əsrin geosiyasi mübarizəsi artıq yalnız siyasi təsir və iqtisadi resurslar üzərində qurulmur. Coğrafiyanın özü yenidən böyük güclər arasında rəqabətin əsas amilinə çevrilir. Bu baxımdan dünyanın ən ucqar və uzun müddət əlçatmaz hesab edilən məkanlarından biri - Arktika xüsusi əhəmiyyət qazanır.

İqlim dəyişiklikləri nəticəsində buzlaqların azalması yeni dəniz marşrutlarını və təbii ehtiyatlara çıxışı genişləndirir. Lakin Arktikanın əhəmiyyəti təkcə neft, qaz, nadir metallar və yeni nəqliyyat yolları ilə məhdudlaşmır. Bu ərazi Şimali Atlantika ilə Sakit okeanı birləşdirən strateji xətt, qitələrarası raket trayektoriyaları, sualtı kommunikasiyalar və nüvə çəkindirmə imkanları baxımından da son dərəcə mühüm mövqeyə malikdir.

Məhz buna görə son dövrdə Avropa ölkələrinin Arktikaya münasibəti dəyişir. Avropa İttifaqı 2026-cı ildə Arktika siyasətini yeniləyərkən təhlükəsizlik, müdafiə, bağlantı və iqtisadi təhlükəsizliyi əvvəlki dövrlə müqayisədə daha ön plana çıxarır. Beləliklə, Arktika artıq yalnız ekoloji və elmi əməkdaşlıq məkanı deyil - Şimalda yeni strateji düzənin konturları görünür və bu düzənin əsas sualı belədir: dünyanın ən mühüm güc mərkəzləri Arktikadakı gələcək təhlükəsizlik arxitekturasını kim və hansı qaydalar əsasında müəyyən edəcək?

## Yeni hərbi nizamın şüarı: Arktikanın təhlükəsizliyi Avropanın təhlükəsizliyidir

Yeri gəlmişkən, Avropa İttifaqı ölkələri Arktikada strateji maraqlarının qorunması və regionda təhlükəsizliyin gücləndirilməsi məqsədilə qurum çərçivəsində fəaliyyətlərini artırmaq barədə razılığa gəliblər. Bu barədə Finlandiyanın Rovaniemi şəhərində keçirilən Avropa Arktika Sammitinin yekunlarına dair birgə bəyanatda bildirilib. Aİ-nin 12 üzvünün yüksəksəviyyəli nümayəndələrinin qatıldığı görüşdə qurumun Arktikanın Avropa hissəsində daha strateji və fəal siyasət yürütməsinin vacibliyi vurğulanıb. Tərəflər monitorinq və informasiya mübadiləsinin gücləndirilməsi, vahid vəziyyət mənzərəsinin yaradılması, nəqliyyat və rəqəmsal infrastruktura, hərbi mobilliyə, eləcə də kritik obyektlərin qorunmasına investisiyaların artırılmasını dəstəkləyiblər.

Bundan başqa, Rusiyanın Avropaya qarşı hibrid fəaliyyətlərinin artması region üçün əsas təhdidlərdən biri kimi göstərilib. Çinin artan marağı, Ukraynadakı müharibənin nəticələri və iqlim dəyişiklikləri də Arktikada geosiyasi vəziyyəti dəyişdirən amillər kimi qeyd olunub.

Aİ Şurasının Prezidenti Antonio Koşta Sammitdən sonra açıqlamasında bildirib ki, Arktikanın təhlükəsizliyi Avropanın təhlükəsizliyidir. Onun sözlərinə görə, yeni geosiyasi reallıq Aİ-nin gələcək uzunmüddətli büdcəsində təhlükəsizliyə və müdafiəyə, o cümlədən Arktika regionuna yatırımların artırılmasında əksini tapacaq.

Sammitin iştirakçıları Arktikada təhlükəsizliyin möhkəmləndirilməsi ilə yanaşı, kritik xammal ehtiyatları, gəmiçilik, kosmik sənaye və rəqəmsal bağlantı sahələrində iqtisadi imkanların daha səmərəli istifadəsini də nəzərdə tuturlar.



Diqqət çəkən əsas məqam Avropa İttifaqının Arktikaya münasibətində təhlükəsizlik faktorunun sürətlə önə çıxmasıdır. Aİ-nin yeni təhlükəsizlik doktrinasında ABŞ yer almır - bir sıra siyasi mütəxəssislər düşünürlər ki, burada

## Avropa Arktika xəttini niyə gücləndirir?

məsələni "Aİ NATO-dan kənar yeni təhlükəsizlik sistemi yaradır" kimi təqdim etmək tam mənzərəni ifadə etmir. Aİ-nin hazırkı sənədlərində NATO ilə əməkdaşlıq xüsusi olaraq vurğulanır. Avropa Parlamentinin mövqeyində Arktikada Aİ-NATO dialoqunun, kəşfiyyat mübadiləsinin, dəniz müşahidəsinin və kritik infrastrukturun qorunmasının gücləndirilməsi tövsiyə olunur.

Lakin bununla yanaşı, Avropanın ayrıca strateji xətt formalaşdırmaq istəyi açıq görünür. 12 ölkənin bəyanatında Avropa İttifaqının Arktikada daha strateji və fəal rol oynaması istəyi aydın şəkildə ortaya qoyulur. Bu, sadəcə ekoloji siyasətin genişləndirilməsi deyil, Avropanın öz maraqlarını ayrıca müəyyənləşdirmək cəhdidir. Bəs bunun səbəblərini necə izah etmək olar?

Burada Ukrayna faktorunun da ciddi təsiri görünür. Avropada belə bir qənaət güclənib ki, qlobal təhlükəsizlik məsələlərində ABŞ və Rusiya arasında formalaşa biləcək hər hansı yeni anlaşma Avropanın maraqlarını avtomatik şəkildə təmin etməyə bilər. Ukrayna müharibəsi ətrafında Avropanın qərarvermə masasındakı rolunun məhdud qalması bu narahatlığı daha da artırıb. Buna görə də Brüssel Arktika məsələsində "başqa güclərin qərarlarını gözləyən tərəf" olmaq istəmir.

Bu yanaşmanın arxasında daha geniş "strateji muxtariyyət" ideyası dayanır. Avropa kritik infrastrukturun, peyk rabitəsinin, dəniz yollarının, enerji təhlükəsizliyinin və müdafiə imkanlarının xarici güclərdən həddindən artıq asılı vəziyyətə düşməsini istəmir. Arktikada sualtı kabellər və digər kommunikasiya xətləri ilə bağlı son hadisələr də bu narahatlığı gücləndirib.

Beləliklə, Avropanın məqsədi NATO-nu kənarlaşdırmaqdan daha çox, ABŞ-dan asılı olmayan əlavə siyasi və strateji imkanlar yaratmaqdır. Bu isə Arktikanı Avropanın strateji muxtariyyət siyasətinin yeni sınaq meydanına çevirir.

## Arktika uğrunda mübarizənin mərkəzində Rusiya dayanır

Xatırladaq ki, Arktika coğrafi baxımdan səkkiz dövlətin - Rusiya, ABŞ, Kanada, Danimarka, Norveç, İsveç, Finlandiya və İslandiyanın nüfuz dairəsindədir. Lakin bu ölkələrin regiondakı imkanları eyni deyil. Arktika ərazilərinin təxminən yarısına malik olan Rusiya həm coğrafi miqyas, həm də hərbi infrastruktur baxımından açıq üstünlüyə sahibdir. Rusiya 2000-ci illərin ortalarından etibarən Sovet dövründən qalmış hərbi obyektlərini yenidən qurub, hava hücumundan müdafiə, radar, aviasiya və dəniz qüvvələrinin imkanlarını artırıb. Kola yarımadasında yerləşən Şimal Donanmasının nüvə sualtı qayıqları isə Rusiyanın bu regiondakı əsas strateji üstünlüklərindən biridir.

Məsələ yalnız hərbi bazalarla da məhdudlaşmır. Şimal Dəniz Yolu Rusiyanın Arktikadakı iqtisadi və geosiyasi strategiyasının mühüm hissəsidir. Moskva bu marşruta nəzarəti həm iqtisadi gəlir, həm də Avropa ilə Asiya arasında alternativ logistika xətti kimi qiymətləndirir. Avropa Parlamentinin 2026-cı il sənədlərində də Rusiyanın Arktikadakı hərbi infrastrukturunun genişləndirilməsi, Şimal Dəniz Yolunda nəzarətin gücləndirilməsi və Çin-Rusiya əməkdaşlığının artması ilə bağlı narahatlıq ifadə olunur.

Arktikada Aİ-nin tək "rəqibi" Rusiya deyil - ABŞ Alyaskadakı hərbi imkanları və Qrenlandiyadakı Pituffik kosmik bazası ilə regionda mühüm mövqeyə malikdir. Eyni zamanda Kanada da Arktika təhlükəsizliyinin əsas aktorlarıdır. Finlandiya və İsveçin NATO-ya daxil olması isə Qərb alyansının Şimaldakı mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. NATO 2026-cı ilin fevralında "Arctic Sentry" adlı yeni fəaliyyəti də məhz regionda çəkindirmə və müdafiə imkanlarını artırmaq məqsədilə başladıb.

Beləliklə, Aİ-nin yeni Arktika strategiyası tədricən yeni hərbi balansın formalaşdırılmasına istiqamətlənir. Yeni mübarizənin detallarına baxsaq - Rusiya burada mövcud üstünlüyünü qorumağa çalışır, Qərb isə həmin üstünlüyün strateji nəticələrini məhdudlaşdırmağa hazırlaşır.

## Qrenlandiya düyünü: Vaşinqtonla Brüssel arasındakı ziddiyyət

Arktika məsələsini ABŞ-Avropa münasibətlərindən ayırmaq mümkün deyil. Çünki regionun ən strateji nöqtələrindən biri Qrenlandiyadır. Hüquqi baxımdan Qrenlandiya Danimarka Krallığının tərkibində olan və özünü idarə edən ərazidir. Danimarka Aİ üzvü olsa da, Qrenlandiyanın özü Aİ-nin tərkibində deyil. Buna baxmayaraq, onun təhlükəsizliyi, resursları və geosiyasi mövqeyi Avropa üçün həyati əhəmiyyət daşıyır. Aİ institutları Qrenlandiyanın gələcəyinə yalnız Qrenlandiya xalqının və Danimarkanın qərar verməli olduğunu dəfələrlə vurğulayıb.

ABŞ-ın Qrenlandiyaya nəzarət məsələsində irəli sürdüyü iddialar isə Avropada ciddi narahatlıq yaradıb. Vaşinqtonun arqumenti əsasən Arktikanın dəyişən təhlükəsizlik mühiti və ABŞ-ın strateji maraqları ilə əlaqələndirilir. Lakin Avropa üçün məsələ bundan daha genişdir. Əgər hərbi təhlükəsizlik arqumenti gələcəkdə Qrenlandiyanın siyasi statusuna təzyiq vasitəsinə çevrilərsə, bu, təkcə Danimarkanın deyil, bütövlükdə Avropa təhlükəsizlik sisteminin problemi olacaq.

Məhz buna görə Aİ daxilində Qrenlandiyaya siyasi və iqtisadi dəstəyin artırılması istiqamətində addımlar atılır. Avropa Parlamenti Qrenlandiyanın suverenliyi və öz müqəddəratını müəyyən etmək hüququnu xüsusi olaraq müdafiə edir. Avropa Komissiyasının da Qrenlandiyada investisiya, peyk rabitəsi, xammal və bərpaolunan enerji layihələrinə marağı artır.

Bununla belə, burada daha mürəkkəb bir paradoks yaranır. ABŞ NATO-nun əsas üzvüdür və Avropa onunla Arktikada təhlükəsizlik əməkdaşlığından imtina edə bilməz. Elə 2026-cı ilin iyununda Avropa liderləri də Arktika təhlükəsizliyinin NATO çərçivəsində, ABŞ-ın iştirakı ilə təmin edilməsinin vacibliyini bəyan etmişdilər.

Deməli, Aİ Qrenlandiya məsələsinə görə, ABŞ-dan maksimum "uzaqlaşmağa" çalışsa da, mümkün olmayacaq. Əsas məsələ ABŞ-la müttəfiqlik münasibətlərini qoruyaraq, Avropanın öz maraqlarının ayrıca təmin edilməsidir. Qrenlandiya isə bu ziddiyyətin ən həssas nöqtəsinə çevrilib.

## Orta Dəhliz iqtisadi xətdirsə, Arktika yeni hərbi xəttə çevrilə bilər

Göründüyü kimi, yeni iqtisadi nizamda Orta Dəhlizin əhəmiyyəti nə qədər artırsa, yeni təhlükəsizlik arxitekturasında da Arktikanın çəkisi də bir o qədər yüksəlir. Lakin bu iki məkanın funksiyası fərqlidir. Orta Dəhliz Şərqlə Qərbi birləşdirən iqtisadi, logistika və enerji bağlantısı kimi önə çıxırsa, Arktika qlobal güclərin hərbi-strateji balansına birbaşa təsir edən məkan kimi formalaşır.

Buzlaqların əriməsi regionu tədricən daha əlçatan etdikcə burada yeni dəniz yolları, enerji və mineral resurslar, rabitə xətləri və logistika imkanları uğrunda rəqabət genişlənəcək. Bu isə Arktikanı iqtisadi maraqların kəsişdiyi məkan olmaqla yanaşı, hərbi çəkindirmə və qarşıdurma risklərinin artdığı əraziyə çevirə bilər.

Üstəlik, Rusiya ilə Qərb arasındakı qarşıdurmanın Avropanın şimal sərhədlərinə yaxınlaşması regionun əhəmiyyətini daha da artırır. NATO artıq Arktikada hərbi təlimlərin və müşahidənin intensivləşdirilməsini həyata keçirir. Bu mərhələdə Norveç, Finlandiya və İsveçin rolu artır, Danimarka Qrenlandiya istiqamətində müdafiə imkanlarını genişləndirir, Kanada və ABŞ isə öz şimal ərazilərində hərbi və radar imkanlarını gücləndirir.

Bütün bunlar göstərir ki, qarşıdakı mərhələdə Arktikada əsas mübarizə təkcə torpaq və su sahələri uğrunda olmayacaq. Söhbət radar və peyk sistemlərindən, sualtı kabellərdən, dəniz yollarından, nüvə çəkindirməsindən, kosmik müşahidədən və kritik infrastrukturdan gedəcək. Çin də "Qütb İpək Yolu" və iqtisadi layihələr vasitəsilə regiona marağını artırır. Avropa Parlamentinin sənədlərində Rusiya və Çin əməkdaşlığının Arktikadakı strateji nəticələrinə ayrıca diqqət yetirilir.

Beləliklə, qarşıdakı illərdə Arktika sadəcə "Şimaldakı soyuq məkan" kimi deyil, yeni dünya nizamının ən mühüm strateji koordinatlarından biri kimi qəbul edilə bilər.

***Pərviz SADAYOĞLU***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Səmanı qoru, özünü qoru...

BMT Baş Assambleyasının 1994-cü ildə qəbul etdiyi qətnaməyə əsasən, sentyabrın 16-sı bütün dünyada Beynəlxalq Ozon Qatının Mühafizəsi Günü kimi qeyd edilir.

Ozon təbəqəsi - Yer kürəsini günəşin əhvedici radiasiyasından qoruyur. Yer kürəsində olan bütün canlıları ultrabənövşəyi şüalanmadan qoruyan ozon qatının qorunması dünya ölkələri üçün birinci dərəcəli problemlərdən sayılır. Beynəlxalq ozon qatının mühafizəsinin devizi belədir: "Səmanı qoru, özünü qoru, ozon təbəqəsini qoru!".Ozon qatının dağılmasında antropogen faktorun qarşısının alınması məqsədilə 1987-ci ilin sentyabr ayında Monreal şəhərində ozon qatını dağıdan maddələr haqqında tarixi Protokol imzalanıb. Protokola ozon qatını dağıdan maddələrin istehsal və istifadəsinin mərhələlərlə azaldılması və aradan qaldırılması üzrə tənzimləmə tədbirləri daxil edilib. Monreal Protokolunun həyata keçirilməsi nəticəsində soyuducularda, kondisionerlərdə və digər məhsullarda ozonu məhv edən kimyəvi maddələr 99 faiz azalıb.

Qeyd edək ki, Azərbaycan 1996-cı ildən "Ozon qatının qorunması haqqında Vyana konvensiyası"na, "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"na və bu protokola edilmiş düzəlişlərə dair Sazişə qoşularaq ozon qatının qorunması üçün üzərinə öhdəliklər götürüb. Bu da sənaye müəssisələri və məişətdə ozondağıdıcı maddələrlə (ODM) təchiz edilmiş cihaz və avadanlıqların, əsasən də soyuducu və kondisionerlərin daha müasir texnologiyalarla əvəzlənməsindən, yaşıl iqtisadiyyata mərhələli keçidin təmin edilməsindən ibarətdir.

Milli mütəxəssislərin fikrincə, hazırda Azərbaycan həmin konvensiya üzrə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirən ölkələr sırasındadır. Ölkəmizdə Monreal Protokolu çərçivəsində görülmüş tədbirlər nəticəsində ODM-lərdən istifadə Monreal Protokolu üzrə müəyyən edilmiş qrafikə uyğun olaraq mərhələlərlə istifadədən çıxarılıb, istehlak 271 tondan 0.016 tona qədər azalıb.

Ozon qatının tükənməsinə dair son elmi araşdırmalar göstərir ki, konvensiyanın icrası nəticəsində 2000-ci ildən bəri planetdə ozon təbəqəsinin hissələri on il ərzində 1-3 faiz sürətlə bərpa olunur. Proqnozlaşdırılan sürətlə ozon qatı şimal yarımkürəsi və orta enliklərdə 2030-cu ilə, cənub yarımkürəsində 2050-ci ilə, qütb bölgələrində isə 2060-cı ilə qədər tamamilə bərpa oluna bilər".

# Rənglərin psixologiyası...

## Seçdiyimiz rənglərin arxasında nə dayanır?

Bəzən adi bir rəng insanı sakitləşdirə, enerjisini artıra yaxud izah edə bilmədiyimiz narahatlıq yarada bilər. Rənglər paltar seçimimizdən tutmuş evimizin divarlarına, reklam lövhələrindən sosial media dizaynlarına qədər həyatımızın hər yerindədir. Bəs rənglər sadəcə gözümüzə xoş görünən çalarlardır, yoxsa psixoloji vəziyyətimizə həqiqətən təsir edə bilirlər?

Məlumdur ki, insan ətraf aləmi ilk növbədə hissləri vasitəsilə qavrayır. Rənglər də həmin qavrayışın mühüm elementlərindən biridir. Psixologiyada rənglərin insanın emosional reaksiyalarına, diqqətinə, davranışına və əhvalına təsir göstərdiyi qeyd olunub. Lakin burada vacib bir məqam var: rənglərin təsiri hər kəs üçün eyni deyil. Bir insan üçün rahatlıq simvolu olan rəng başqa biri üçün xoşagəlməz xatirə ilə bağlı ola bilər. Yəni rənglərin psixologiyası düşündüyümüz qədər qədər sadə deyil. Burada insanın yaşı, şəxsi təcrübəsi, həmin andakı emosional vəziyyəti və rəngin istifadə olunduğu mühit də mühüm rol oynayır.



**Enerji və təhlükə**

Qırmızı ən güclü emosional assosiasiyalar yaradan rənglərdən biridir. O, enerji, sevgi, cəsarət və dinamika ilə əlaqələndirilə bilər. Buna görə də diqqət cəlb etmək istəyən reklam və dizaynlarda qırmızıdan tez-tez istifadə olunur.

Digər tərəfdən, qırmızı təhlükə, aqressiya, həyəcan və gərginlik hissini də gücləndirə bilər. Uzun müddət çox parlaq qırmızı rəngin üstünlük təşkil etdiyi mühit bəzi insanlarda narahatlıq yarada bilər.

**Sakitliyin və etibarın rəngi...**

Mavi çox vaxt sakitlik, sabitlik, etibar və təhlükəsizlik hissi ilə bağlanır. Səma və dənizlə assosiasiyası da bu rəngə rahatladıcı məna qazandıra bilər. Buna görə mavi rəng ofislərdə, bank və texnologiya şirkətlərinin vizual üslubunda geniş istifadə olunur.

Lakin mavi də hər zaman müsbət emosiyalar yaratmır. Soyuq və tünd mavi çalarlar bəzi insanlarda tənhalıq, məsafə və kədər hissini gücləndirə bilər.

**Təbiət, tarazlıq və yenilənmə...**

Yaşıl təbiətlə ən sıx əlaqələndirilən rənglərdəndir. Ağaclar, yarpaqlar, meşə və bitkilərlə assosiasiya olunduğuna görə rahatlıq və yenilənmə hissi yarada bilər. Yaşıl həm də tarazlıq və harmoniya simvolu kimi qəbul edilir. Buna görə istirahət və sakitlik tələb edən məkanlarda yaşıl tonlara üstünlük verilə bilər.

Ancaq yaşılın çalarları və konteksti də əhəmiyyətlidir. Bəzi tünd və tutqun yaşıl tonlar insanda ağırlıq və sıxıntı hissi yarada bilər.

**Günəşin enerjisi**

Sarı rəng günəş, işıq, sevinc, nikbinlik və yaradıcılıqla əlaqələndirilir. Parlaq sarı diqqəti tez cəlb edir və enerjili atmosfer yarada bilər. Amma həddindən artıq parlaq sarı bəzi insanlarda vizual yorğunluq və gərginlik yarada bilər. Deməli, rəngin özü qədər onun miqdarı və istifadə forması da önəmlidir.

**Sosiallıq və hərəkət**

Narıncı qırmızının enerjisi ilə sarının pozitivliyini birləşdirən isti rənglərdəndir. O, ünsiyyət, canlılıq, hərəkət və sosiallıqla əlaqələndirilə bilər. Bu səbəbdən narıncı rəng xüsusilə gənclərə yönəlmiş məkan və layihələrdə enerjili atmosfer yaratmaq üçün seçilir. Lakin çox intensiv narıncı da sakitlik tələb olunan məkan üçün uyğun seçim olmaya bilər.

**Sirr, yaradıcılıq və mənəviyyat...**

Bənövşəyi tarixən dəbdəbə, nüfuz və xüsusi statusla əlaqələndirilib. Psixoloji baxımdan isə yaradıcılıq, xəyal gücü, sirr və mənəvi axtarışlarla assosiasiya edilə bilər. Açıq bənövşəyi daha yumşaq və sakit təsir bağışlayır, çox tünd tonlar isə daha dramatik və ağır görünə bilər.

**Təmizlik, sadəlik, bəzən isə soyuqluq**

Ağ rəng təmizlik, səliqə, yenilik və sadəlik hissi yaradır. Buna görə xəstəxanalardan tutmuş müasir interyerlərə qədər müxtəlif sahələrdə geniş istifadə olunur. Buna baxmayaraq, tamamilə ağ və steril görünən mühit bəzi insanlarda soyuqluq və emosional boşluq hissi yarada bilər.

**Güc və zəriflik, eyni zamanda yas və kədər**

Qara rəngin mənası xüsusilə kontekstdən asılıdır. Bu rəng güc, ciddilik, nüfuz, zəriflik və minimalizmlə yanaşı, yas, kədər və qaranlıqla da əlaqələndirilə bilər. Moda dünyasında qara çox vaxt klassik və zövqlü seçim kimi qəbul edilir. Lakin emosional baxımdan uzun müddət həddindən artıq tünd rənglərin üstünlük təşkil etdiyi mühit bəzi insanlarda ağırlıq hissi yarada bilər. Burada mədəni fərqlər də mühüm rol oynayır: bir cəmiyyətdə müəyyən rəngin simvolizə etdiyi məna başqa mədəniyyətdə tamamilə fərqli ola bilər.

**İncəlik və emosional rahatlıq**

Çəhrayı rəng ənənəvi olaraq zəriflik, qayğı, romantika və yumşaqlıqla əlaqələndirilir. Açıq çəhrayı tonlar sakit və yumşaq atmosfer yarada bilər. Amma çəhrayının mənası da zamanla dəyişib və gender stereotiplərindən tamamilə asılı deyil. Bu gün rəngin istifadəsi daha geniş və müxtəlifdir.

**Neytrallıq və balans**

Boz neytral rəngdir. O, sakitlik, ciddilik və təmkin hissi yarada bilər. İş mühitində və minimal dizaynlarda bu xüsusiyyətinə görə tez-tez seçilir. Digər tərəfdən, bozluğun həddindən artıq olması monotonluq, cansıxıcılıq və emosional durğunluq təəssüratı yarada bilər.

**Rənglər psixoloji vəziyyətimizi dəyişə bilər?**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən Elnur Rüstəmov bildirib ki, rənglər insanın psixoloji durumuna təsir göstərə bilər, amma onların təsirini mütləq və universal qanun kimi qəbul etmək düzgün deyil: "Məsələn, insan özünü yorğun və gərgin hiss edirsə, sakit və yumşaq tonlar onun üçün daha rahat mühit yarada bilər. Əksinə, özünü halsız və motivasiyasız hiss edən insan üçün daha canlı rənglər müsbət emosional stimul rolunu oynayır. Ancaq depressiya, güclü narahatlıq və digər psixoloji problemləri yalnız rəng seçimi ilə həll etmək mümkün deyil. Rənglər ən yaxşı halda emosional mühitin bir hissəsidir, psixoloji müalicənin əvəzi deyil".

**Evdə hansı rənglərə üstünlük verək?**

Psixoloq qeyd edib ki, evdə olan rənglər insanın gündəlik əhvalına təsir edən amillərdən biri ola bilər: "Yataq otağında daha yumşaq, sakit tonlar, iş və yaradıcılıq üçün nəzərdə tutulan məkanda isə daha canlı, lakin göz yormayan rənglər seçilə bilər. Əsas məsələ bir rəngi bütün məkana dominant şəkildə tətbiq etmək yox, rənglər arasında balans yaratmaqdır. Məsələn, sakit neytral fonu daha canlı rəngli aksesuarlarla tamamlamaq həm estetik, həm də emosional baxımdan daha rahat nəticə verə bilər".

**Bu fikirlər elmi baxımdan sübut olunmayıb**

E.Rüstəmov qeyd edib ki, mavi və yaşıl tonlar bir çox insan üçün sakitlik və rahatlıq hissi ilə əlaqələnir. Onun sözlərinə görə, qırmızı və narıncı kimi isti rənglər daha aktiv və enerjili atmosfer yaratsa da "qırmızı insanı aqressiv edir" və ya "mavi depressiyanı aradan qaldırır" kimi qəti fikirlər elmi baxımdan sübut olunmayıb: "İnsanın psixoloji vəziyyətinə rənglərdən daha çox yaşanılan hadisələr təsir edir: Həyat şəraiti, şəxsi münasibətlər, stress səviyyəsi, yuxu, sağlamlıq və sosial mühiti. Buna görə də rəngləri psixoloji problemlərin müalicəsi kimi təqdim etmək düzgün deyil.

Rəng seçimində bir qaydanı tövsiyə edərdim: Rəngin "düzgün" və ya "səhv" olmasına deyil, onun sizdə hansı hissi yaratdığına diqqət yetirin. Əgər müəyyən rəng sizdə rahatlıq, enerji və pozitivlik yaradırsa, onu həyatınıza daxil etməkdən çəkinməyin. Əgər hansısa rəng sizi sıxır, yorur və ya xoşagəlməz xatirələr yaradırsa, ondan uzaq durmağınız da tamamilə normaldır".

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4446
Sifariş: 1213
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova